

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 24 (24.459)

*26 iyun 2025-ci il, cümə axşamı*

www.serqqapisi.az

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Müzəffər Sərkərdənin Qalib Ordusu




107 il bundan öncə, 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının verdiyi qərarla general-leytenant Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında ilk ordu hissəsi sayılan Əlahiddə Azərbaycan korpusu yaradıldı. Bu qərar Şərqin müsəlman aləmində ilk demokratik hökumətin öz ordusunu formalaşdırmasına hüquqi əsas verdi və beləliklə də qısa zamanda bu sahədə dərin islahatlar aparıldı, quruculuq prosesi həyata keçirildi. Ümummilli Liderimiz Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə Milli Ordunun yarandığı gün tarixiləşdirildi, həmin gün Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan olundu.

Azərbaycanda nizami və yüksək döyüş hazırlığına malik milli ordunun formalaşdırılması görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin ölkəmizdə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlayaraq digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də mühüm addımlar atılıb. Ulu Öndərin uzaqgörən siyasətinin nəticəsində ötən əsrin 70-ci illərində ölkəmizdə Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılıb ki, burada hazırlanan hərbçi kadrlar sonradan müstəqil Azərbaycanın milli ordusunun zabit heyəti ilə təmin olunmasında əhəmiyyətli rol oynayıb. Peşəkar milli ordunun yaradılmasına isə ötən əsrin 90-cı illərində Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda başlanılıb. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsi yaradılıb, 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul edilib. Həmin il oktyabrın 9-da isə Naxçıvan şəhərində ilk hərbi parad keçirilib. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı 705 saylı hərbi hissəyə təhvil verilib.

**Səhifə ⇨ 3**





**Tarix yaradan LİDER** 2

**Naxçıvan şəhərinin Baş planının hazırlanması Böyük Britaniya şirkətinə həvalə olunub** 5

**Qüdrətli ordu və xalq birliyi Azərbaycanın zəfər modelidir** 7

**Mövzu Vətəndir** 8

**Yol gedir Zəngəzura** 9

**6 kəmər, 11 qızıl medal** 12

# Tarix yaradan LİDER

***Ümummilli Liderimizin həyatı və zəngin dövlətçilik fəaliyyəti Azərbaycanın inkişafı ilə sıx şəkildə bağlıdır. 1969-cu ildə birinci dəfə respublika rəhbərliyinə gələn Ulu Öndərimiz sosial-iqtisadi böhran keçirən, geridə qalan Azərbaycanı qısa zaman ərzində keçmiş ittifaqın ən qabaqcıl respublikalarından birinə çevirmişdir. 1969-1982-ci illərdə milli şüurun oyanışı naminə həyata keçirilən kompleks tədbirlər, elm, təhsil, səhiyyə, mədəniyyət, kadr hazırlığı, sosial-iqtisadi sahələr üzrə görülən işlər XX əsrin 90-cı illərində Azərbaycanın müstəqillik əldə etməsinə şərait yaratmışdır. Müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin dövrdə təməli qoyulmuş potensiala əsaslanır.***

***1969-cu ildə əsası qoyulan dirçəliş və inkişaf strategiyası nəticəsində yaranmış böyük iqtisadi potensial XX əsrin 80-ci illərinin sonundan başlayaraq dağıdılıb bərbad hala salınsa da, 1993-cü ildən sonra yenə bu müdrik insanın böyük iradəsi və səyləri ilə bərpa edildi. 1993-cü ilin iyununda əldən getməkdə olan dövlət müstəqilliyini Azərbaycana dahi şəxsiyyət Heydər Əliyev qaytarmışdır. Dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qalan ölkəmizi məhz Ümummilli Liderimiz təlatümlər burulğanından xilas etmiş, möhkəm ictimai-siyasi sabitlik yaratmış, Azərbaycanı ötən əsrin 70-ci illərindən başlanan quruculuq xəttinə qayıtararaq hərtərəfli inkişaf yoluna çıxarmışdır. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmayacaqdır.***



Ümummilli Lider Heydər Əliyevin mənalı ömrü xalqa xidmət, Vətənə məhəbbət nümunəsidir. ***“Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır”***, – deyən xalqımızın böyük oğlu Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını və milli inkişaf konsepsiyasını yaratmışdır. Bu konsepsiya əsasında xalqımız öz həqiqi dövlət müstəqilliyinə qovuşmuşdur.

Ötən əsrin 90-cı illərində xalqımızın böyük oğlunun siyasi arenadan uzaqlaşması ilə Azərbaycanın ağır və çətinliklərlə dolu dövrü başladı, torpaqlarımız işğal edildi, xalqımıza qarşı Qanlı Yanvar faciəsi, Xocalı soyqırımı törədildi. Xalqın əsl xilaskara ehtiyacı olduğu belə bir dövrdə bütün məsuliyyəti çiyinlərinə götürən dahi rəhbər Naxçıvandan xilaskarlıq missiyasına başladı, Azərbaycanın qurtuluş və inkişaf tarixini yazdı. Dahi şəxsiyyət muxtar respublikanın rəhbəri olduğu 1991-1993-cü illərdə xalqımız üçün həyati əhəmiyyət daşıyan mühüm tarixi qərarlar qəbul etmişdir.

Ümummilli Liderimizin 1993-cü il iyunun 15-də respublikamızda ali hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın dövlətçilik tarixinin şanlı səhifəsini təşkil edir. Tarixi zərurətdən yaranan bu qayıdışla xalqımız müstəqil dövlətçiliyini itirmək təhlükəsindən xilas oldu. Ulu Öndərin irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın yeni və davamlı inkişaf modeli kimi özünü doğrultdu, ölkə həyatının bütün sahələrində dönüş yarandı, hərtərəfli sosial-iqtisadi inkişafın əsası qoyuldu. Azərbaycanda güclü ordu formalaşdı.

Ümummilli Lider Heydər Əliyevin xalqın təkidi ilə Bakıya qayıdışı elə bir tarixi dövrə təsadüf edirdi ki, Azərbaycanı dövlət müstəqilliyini itirmək kimi sonu görünməyən bir uçurum qarşısında qoymuşdu. Ölkəni bu vəziyyətdən yalnız siyasi təcrübəyə, diplomatik qabiliyyətə malik rəhbər xilas edə bilərdi. 1993-cü ilin 15 iyununda Milli Məclisin Sədri, həmin ilin 3 oktyabrında xalqın böyük dəstəyi ilə ölkə Prezidenti seçilən görkəmli dövlət xadimi əsrlərə bərabər işlər görmüş, müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi böyük tarixi missiyanı uğurla həyata keçirmişdir. Məhz Heydər Əliyev dühası Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini, o cümlədən Azərbaycanın iqtisadiyyatını dağılmaq, məhv olmaq təhlükəsindən xilas etmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin bütün siyasi uğurlarının əsasını təşkil edən, onu 50 milyonluq dünya azərbaycanlılarının Ümummilli Lideri səviyyəsinə yüksəldən milli dövlətçilik təlimi, Azərbaycançılıq məfkurəsidir.

Ulu Öndər Heydər Əliyevin ömür yolu doğma Vətəninin inkişafına və xalqının rifahına həsr olunmuşdur. Ən çətin vaxtlarda xalqının yanında olan, xilaskarlıq missiyasını uğurla yerinə yetirən və müstəqil Azərbaycanın qurucusuna çevrilən Ulu Öndərin irsi Azərbaycan xalqının milli sərvətidir. ***“Mən fəxr edirəm ki, azərbaycanlıyam. Mən fəxr edirəm ki, Azərbaycan torpağı mənim doğma torpağımdır. Mən fəxr edirəm ki, mənim Azərbaycan kimi millətim var. Mən fəxr edirəm ki, mənim doğma ana dilim, Azərbaycan dilim var. Mən fəxr edirəm ki, müstəqil, azad, qüdrətli Azərbaycan dövləti var”***, – deyən dahi rəhbərin həyatının mənası da məhz Azərbaycan idi.

Ümummilli Liderimiz Azərbaycanın müasir simasını müəyyənləşdirmişdir. Onun ölkəmizə hər iki rəhbərliyi dövrü, eləcə də Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi illər müstəqil dövlətçilik tariximizin şanlı səhifələridir. Dahi rəhbər hələ ötən əsrin 70-ci illərindən başlayaraq dahiyanə uzaqgörənliklə ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks layihələrin həyata keçirilməsinə nail olmuşdur. O dövrdən başlanan sürətli inkişaf dağ və sərhəd rayonlarını da öz əhatəsinə almış, sənaye, tikinti-quruculuq və aqrar-sənaye kompleksinin inkişafına nail olunmuş, emal və hasilat şəbəkəsi genişlənmişdi.

Ulu Öndərimiz Azərbaycanın gələcək müstəqilliyi üçün təkcə iqtisadi əsaslar yaratmamış, bununla yanaşı, elm, təhsil, mədəniyyət və incəsənət sahələrində də böyük nailiyyətlər qazanılmış, milli oyanışın əsası qoyulmuşdur. Bir sözlə, böyük dövlət xadimi Heydər Əliyev 1969-1982-ci illərdə ölkəmizdə yüksək iqtisadi, elmi-mədəni və milli kadr potensialı formalaşdırmaqla bugünkü müstəqil Azərbaycanın möhkəm bünövrəsini yaratmışdır.

1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında müstəqil dövlətçiliyimizin əsaslarını hazırlayan, üçrəngli bayrağımızı qaldıran, bu qədim diyarda milli birliyimizin və həmrəyliyimizin əsasını qoyan, ilk milli ordumuzu yaradan Ümummilli Liderin 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizə parlaq səhifələr yazmışdır.

Aydın məsələdir ki, sabitlik olmadan heç bir ölkədə siyasi və iqtisadi islahatları aparmaq mümkün deyil. Ona görə də qısa zamanda Ulu Öndərin zəngin dövlətçilik təcrübəsi, qətiyyəti, uzaqgörənliyi sayəsində ölkəmizdə siyasi sabitlik bərqərar olunmuş, irimiqyaslı iqtisadi layihələrin icrasına başlanmışdı. Həmin illərdə Ümummilli Liderimizin işləyib hazırladığı quruculuq xətti qısa zamanda ölkəmizdə ictimai-siyasi sabitliyin təminatına çevrilmiş, Azərbaycan dünya iqtisadi sisteminə inteqrasiya olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idi. Bu gün Azərbaycanda sülhdür, əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan, xalqın dəstəyinə arxalanan xalqımızın Ümummilli Lideri Heydər Əliyev olmuşdur. Bütün bunlar onun zəhmətidir, onun əməyidir və bu gün biz xalqla birlikdə Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk”.***

Xalqımızın Ümummilli Lideri, görkəmli siyasi xadim Heydər Əliyevin arzuladığı kimi, Azərbaycan bu gün dünyaya günəş kimi doğmaqdadır. Bu günəşin nüvəsi, əbədi enerji mənbəyi isə dahi şəxsiyyətin həmişəyaşar ideyalarıdır. Ümummilli Liderin parlaq dühası, uzaq gələcəyə hədəflənmiş müdrik siyasəti bundan sonra da müstəqil Azərbaycanımızın bu gününə və gələcəyinə nur saçacaqdır.

Bütün bunlar bir daha göstərir ki, Heydər Əliyev yolunun alternativi yoxdur. Heydər Əliyev siyasi tariximizə qurucu və xilaskar kimi daxil olmuş görkəmli dövlət xadimi olmaqla yanaşı, həm də öz sağlığında xalqın Ümummilli Lideri adını qazanmış dahi şəxsiyyətdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli Heydər Əliyev ideyalarından, onun böyük dövlətçilik məktəbindən ölkəmizin inkişafı və rifahı naminə faydalanacaqdır.

***“İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyinə, ölkəmizin iqtisadi, siyasi inkişafına xidmət olmuşdur”***, – deyən Ulu Öndər Heydər Əliyevin böyük ideyaları, amalları bu gün də Azərbaycanın yoluna nur saçır, xalqımızı xoşbəxt gələcəyə səsləyir.

Azərbaycan dövlətini labüd fəlakətlərdən, hərc-mərclikdən xilas edən dahi şəxsiyyət Heydər Əliyev müstəqilliyimizi qoruyub əbədiləşdirdiyi kimi, xalqımızın xoşbəxt və firavan gələcəyini də təmin etmişdir. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Bu siyasi xəttin uğurlu davamının nəticəsidir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf edir, quruculuq obyektlərinin sayı günbəgün artır, əhalinin yaşayış səviyyəsi yüksəlir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev əldə olunan uğurların Heydər Əliyev yolunun davamı olduğunu bildirərək demişdir: ***“Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır”.***

Ulu Öndər 2003-cü ildə verdiyi xeyir-duası ilə Azərbaycanın sürətlə inkişaf edərək dünya miqyasında layiqli yerini tutacağına, işğal altındakı torpaqlarımızın düşməndən azad olunacağına möhkəm əminlik ifadə etmişdi. Çox keçmədi ki, Ümummilli Liderin fikirləri öz təsdiqini tapdı, yüksək inam, ali etimad özünü doğrultdu. 44 günlük Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı.

Bu gün tarix yaradan lider Heydər Əliyevin izləri onun şah əsəri olan müstəqil, qüdrətli Azərbaycanın hər yerində görünür. Heydər Əliyev yolu ilə gedərək gündən-günə inkişaf edən, tərəqqiyə qovuşan Azərbaycanda əldə olunan bütün nailiyyətlərdə Ümummilli Liderimizin işi və əməlləri yaşayır. Müstəqil Azərbaycan dövlətinin qazandığı tarixi nailiyyətlər, böyük zəfərlər Ümummilli Lider Heydər Əliyev dühasının təntənəsidir.

**Məhəbbət MİRZƏYEVA**

# Müzəffər Sərkərdənin Qalib Ordusu



(əvvəli 1-ci səhifədə)

Azərbaycan Silahlı Qüvvələrinin ayrı-ayrı bölmələr üzrə təkmilləşdirilməsi prosesi Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra uğurla reallaşdırılıb. Qısa müddətdə ordumuzun strukturu tam formalaşdırılıb, bütün növ hərbi birləşmələr əsasında komplektləşdirilmə aparılıb. Görkəmli dövlət xadiminin rəhbərliyi ilə ordunun qanunvericilik bazası yaradılıb, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq Proqramı"na qoşulub. Nəticədə, milli hərbi birləşmələrimiz sülhməramlı qismində dünyanın müxtəlif münaqişə zonalarında iştirak edib, fəaliyyəti yüksək qiymətləndirilib. ***"Müstəqil Azərbaycan Respublikasının ən vacib, ən böyük sahəsi onun Silahlı Qüvvələridir, milli ordusudur. Hər bir dövlətin müstəqilliyinin rəmzi, təminatçısı onun Silahlı Qüvvələridir. Etibarlı, güclü, Vətənini, torpağını müdafiə etməyə qadir silahlı qüvvələri olmayan ölkənin müstəqilliyi də etibarlı ola bilməz"***, – deyən Ulu Öndərin 1993-cü ildə ali hakimiyyətə ikinci qayıdışından sonra həyata keçirdiyi tədbirlər, ümumilikdə, Azərbaycan Silahlı Qüvvələrinin inkişafında yeni mərhələ olub. Prezident İlham Əliyevin də dediyi kimi: ***"1993-cü ildə ölkəmiz, demək olar ki, parçalanırdı, vətəndaş müharibəsi gedirdi və məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu ağır sınaqdan üzüağ çıxa bildik. Məhz bugünkü Zəfərin təməli, bax o vaxt qoyulmuşdur".***

## Əsrin ən sürətli, müasir və ədalətli müharibəsinin müəllifi

Dahi şəxsiyyətin ordu quruculuğu sahəsində gördüyü işlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə iqtisadiyyatının sürətli inkişafı, ilk növbədə, dövlətimiz üçün prioritet olan ordumuzun büdcəsinin artması, orduda müasir komplektləşdirmənin aparılmasına geniş imkanlar yaradıb. Nəticədə, Silahlı Qüvvələrimiz dünyanın ən müasir silah-sursatları, hərbi-texnoloji avadanlıqları ilə təmin olunub, şəxsi heyətin döyüş qabiliyyəti artırılıb, vətənpərvər ruhu yüksəlib. Ordumuzun gücləndirilməsi ilə bağlı görülən mühüm işlər, keçirilən təlimlər Silahlı Qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranmasına, güclü nizami hissələrin formalaşdırılmasına yol açıb.

İllərlə həyata keçirilən ordu quruculuğu işləri 5 il öncə öz praktiki nəticəsini verdi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuz işğal altında olan ərazilərimizin azad olunması üçün geniş əks-hücum əməliyyatına başladı və 44 gün ərzində düşməni diz çökdürdü, ərazi bütövlüyümüzü təmin etdi. Vətən müharibəsi Silahlı Qüvvələrimizin nəyə qadir olduğunu bir daha bütün dünyaya göstərdi. "Dəmir yumruq" əməliyyatı adlanan bu savaş, eyni zamanda XXI əsrin ən sürətli, müasir və ədalətli müharibəsi kimi də müasir hərb tarixinə düşdü və xüsusilə də Şuşa uğrunda gedən döyüşlər aparıcı hərbi mərkəzlər, mütəxəssislər tərəfindən təhlil edilib öyrənilməyə başlanıldı. Zəfər Günü kimi tariximizə əbədi həkk olunan noyabrın 8-də Qarabağın gözü Şuşa şəhərinin işğaldan azad olunması ilə Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi, Ulu Öndərin, xalqımızın müqəddəs arzularını gerçəkləşdirdi.

44 günlük Vətən müharibəsindən sonra "Qisas", "Qətiyyətli cavab", "Fərrux" və digər hərbi əməliyyatlarla düşməni yerinə oturdan, mühüm əhəmiyyətə malik hakim yüksəkliklərə sahiblənən, strateji yolları nəzarətə götürən Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də, 23 saata qədər davam edən lokal xarakterli antiterror tədbirləri sayəsində Qarabağda separatizmin kökünü kəsdi. Ərazi bütövlüyümüzə və suverenliyimizin tam təmin olunmasına yol açan bu əməliyyat zamanı bir nəfər belə mülki şəxsə xətər toxunulmaması Silahlı Qüvvələrimizin düzgün koordinasiya və peşəkar fəaliyyətinin daha bir göstəricisi kimi yüksək qiymətləndirildi. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər və 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradlar Müzəffər Sərkərdənin Qalib Ordusunun vətənpərvərliyini, qələbə əzmini bütün dünyaya nümayiş etdirdi. Xankəndi paradında Qalib liderin vurğuladığı kimi: ***"XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin".***

Müzəffər Silahlı Qüvvələrimiz sayəsində bu gün erməni qəsbkarlığına qarşı etibarlı şəkildə müdafiə olunan, qorunan Qarabağda, Şərqi Zəngəzurda dirçəliş prosesləri uğurla gedir, soydaşlarımız öz doğma torpaqlarına qayıdırlar. İlbəil iqtisadi cəhətdən güclənən Azərbaycan dövləti ordumuzun daha da qüdrətlənməsi yönündə məqsədyönlü işlər həyata keçirir, hərbi xərclər artırılır, ordu quruculuğu sahəsində yeni kontraktlar imzalanır, hərbi texnika, silah-sursat alınır, şəxsi heyətin döyüş qabiliyyətinin möhkəmləndirilməsi üçün təlimlər keçirilir. Ötən dövrdə Müzəffər Ali Baş Komandanın təşəbbüsü ilə işğaldan azad edilmiş torpaqlarda yeni hərbi hissələr, sərhəd zastavaları tikilib istifadəyə verilib, yeni komando birlikləri yaradılıb, Türkiyə ilə Azərbaycan arasında imzalanan müqavilələr, əldə olunan razılaşmalar əsasında hərbi qulluqçularımız qardaş ölkədə komando kursları keçib, birgə təlimlərdə iştirak ediblər.

Bu gün regionda və dünyada baş verən prosesləri, artan hərbi təhdidlər fonunda respublikamızın qarşıya qoyduğu əsas prioritetlərdən biri ordunun qüdrətinin, peşəkarlığının daha da artırılması, müasir silah-sursatla təminatdır. Təsadüfi deyildir ki, 2025-ci ilin dövlət büdcəsindən hərbi xərclərə rekord həddə vəsait – 8,4 milyard manat ayrılıb. Regionda təhlükəsizliyə, sabitliyə xidmət edən bu addım bir daha göstərir ki, işğalçı Ermənistan başqa sahələrdə olduğu kimi, hərbi arsenalın gücləndirilməsi prosesində də Azərbaycanı üstələyə bilməz. Hər nə qədər havadarları ona silahları, texnikaları peşkəş etsələr də. Cari il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyevin də dediyi kimi: ***"Mən bunu artıq bir dəfə demişəm: biz Qarabağın və Şərqi Zəngəzurun bərpasına 4 milyard, hərbi və təhlükəsizlik məsələlərinin həlli üçün 8,4 milyard manat vəsait xərcləyirik. Bu, tam fərqli ola bilərdi. Çünki Ermənistanın silahlanma yarışı, bizim də maliyyə resurslarımızı əsas məsələlərdən başqa hərbi məsələlərə cəlb etməyə məcbur edir. Mən onu da bildirmişdim ki, Ermənistan silahlanma yarışında bizimlə rəqabət apara bilməz. Ancaq biz burada bir məsələni də nəzərə almalıyıq. Ermənistana bu silahlar ya pulsuz verilir, ya da ki, kredit şəklində. O kreditlər də müəyyən dövrdən sonra silinir".***

Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğu sahəsində əhəmiyyətli işlər həyata keçirilir, ciddi kadr hazırlığı aparılır, təlimlər təşkil olunur. Ötən dövrdə ölkə Prezidentinin diqqət və qayğısı ilə Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazası xeyli möhkəmləndirilib, kursantlar üçün müasir tədris və məişət şəraiti yaradılıb. Eyni zamanda Prezident İlham Əliyevin Fərmanı əsasında ötən ildən etibarən Milli Müdafiə Universitetinin nəzdində Naxçıvan Hərbi Kolleci də fəaliyyətə başlayıb ki, bu da gələcəkdə ordumuzun peşəkar gizirlərlə təminatında mühüm töhfələr verəcək. İndiyədək 4 minə yaxın kursantın təhsil aldığı Heydər Əliyev adına Hərbi Lisey isə hazırda ordumuzun peşəkar zabitlərlə təminatında böyük rol oynayır. Vətən müharibəsində bu liseyin məzunları da böyük qəhrəmanlıq və şücaət göstərib, bacarıqlı komandirlər kimi ən çətin döyüş tapşırıqlarını yerinə yetirib, Azərbaycanın zəfər salnaməsinə adlarını qızıl hərflərlə yazdırıb, şəhid, qazi, qalib olublar. Ali Baş Komandan torpaqlarımızın işğaldan azad olunmasında, Böyük Qələbənin qazanılmasında naxçıvanlı hərbi qulluqçuların rolunu xüsusi qiymətləndirib: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər".***

Azərbaycan Ordusu yaradılmasının 107-ci ildönümünü Vətənin etibarlı müdafiəçisi, müstəqilliyin, ərazi bütövlüyünün sarsılmaz təminatçısı – Müzəffər, Qalib Ordu kimi, bu ali məqama layiq şəkildə böyük təntənə ilə qeyd edir. Əminliklə demək olar ki, Ali Baş Komandanın rəhbərliyi ilə xalqımıza tarixində ən böyük Qələbə hissini yaşadan Azərbaycan Silahlı Qüvvələri Ulu Öndərin siyasi irsinə sonsuz sədaqət göstərərək ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasında daim misilsiz töhfələr verəcək. Prezident İlham Əliyevin dediyi kimi: ***"Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır – həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib...Bu gün Ulu Öndərin əziz xatirəsinə hörmət edərək biz, bax bu Zəfərə, bu Qələbəyə hər zaman layiq olmalıyıq, hər birimiz, hər bir yerdə. Bu Zəfər, eyni zamanda hər birimizin üzərinə əlavə məsuliyyət qoyur. Biz bu Zəfərə layiq olmalıyıq. Əminəm ki, belə də olacaq".***

**Nail ƏSGƏROV**

## Ali Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib



İyunun 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının növbəti iclası keçirilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin (ikinci oxunuş) müzakirəsi daxil edilib.

Gündəlik təsdiq olunduqdan sonra Ali Məclis sədrinin birinci müavini qeyd edib ki, qanun layihəsi 19 iyun 2025-ci il tarixdə Ali Məclisin Daxili Nizamnaməsinə uyğun olaraq müzakirə edildikdən sonra birinci oxunuşda qəbul olunub. Ali Məclisin İqtisadi siyasət komitəsinin apardığı müzakirənin nəticəsi olaraq layihənin ikinci oxunuş üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınıb.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev və Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov məlumat veriblər.

Gündəlikdə duran məsələ ətrafında müzakirələrdən sonra "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Bununla da Ali Məclisin növbədənkənar sessiyasının iclası öz işini başa çatdırıb.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Dövlət qulluqçularının təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə**

Abbasov Pərviz Nəriman oğlu
Babayev Mahir Məzahim oğlu
Nəcəfova Günel İsa qızı
Novruzov Ağəli Əkbər oğlu

**"Rəşadətli əməyə görə" nişanı ilə**

Eyvazov Rasim Qoşnəli oğlu
Əliyev Anar Hüseyn oğlu
Əliyeva Təranə Qədirxan qızı
Hüseynova Firuzə İsmayıl qızı
İbrahimov Vüsal Əvəz oğlu
İmanova Şəhanə İsmayıl qızı
Qaffarova Elnurə Əlihüseyn qızı
Quliyev Təbriz Siyavuş oğlu
Məmmədov Arzu Mətləb oğlu
Məmmədov Vüsal Vətən oğlu
Məmmədova Səkinə Mübariz qızı
Orucov Orxan Zakir oğlu.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 23 iyun 2025-ci il*

## Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilir



Azərbaycan Respublikası Milli Məclisinin iyunun 21-də keçirilən iclasında "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (birinci oxunuş) müzakirə olunub.

Qanun layihəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına 2 yeni maddənin (maddə 3-1 və maddə 28-1) əlavə edilməsi, 1 maddənin (maddə 5) çıxarılması, bir sıra maddələrdə və Preambula hissədə isə dəyişikliklər edilməsi nəzərdə tutulur.

Layihəyə əsasən Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin III hissəsində qeyd olunan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmağı ilə bağlı müddəa Naxçıvan Muxtar Respublikası Konstitusiyasının Preambulasında da öz əksini tapacaq.

Konstitusiyaya əlavə edilməsi nəzərdə tutulan "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi" adlı 3-1-ci maddəyə əsasən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır və ona rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi həyata keçirir.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Qeyd edək ki, Milli Məclisin iclasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli və Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov da iştirak ediblər.

## Zahid Oruc: "Konstitusiya dəyişiklikləri Naxçıvanda səmərəli idarəetməni təmin edəcək"



Milli Məclisin deputatı Zahid Oruc Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına edilən dəyişiklikləri hüquqi-siyasi baxımdan mühüm tarixi hadisə kimi dəyərləndirib. O bildirib ki, bu islahatlar 44 günlük Vətən müharibəsində qazanılmış Qələbənin hüquqi nəticəsi və dövlət idarəçiliyində unitar prinsiplərin bərpası baxımından xüsusi əhəmiyyət daşıyır: "Ali Qanunumuzun tamlığına qovuşması və Konstitusiya islahatlarının həyata keçirilməsi, əldə etdiyimiz parlaq hərbi Zəfərin hüquqi nəticəsidir. Əgər bu qələbə olmasaydı, separatizmin mövcudluğu şəraitində "bir dövlət-bir Prezident-bir Konstitusiya" prinsipinin tətbiqi çətin olardı".

Deputat qeyd edib ki, Naxçıvana muxtariyyət statusunun verilməsi tarixi zərurətdən doğsa da, ötən yüzillikdə bu status Naxçıvanın qorunmasına və Azərbaycanın ayrılmaz hissəsi kimi formalaşmasına mühüm hüquqi zəmin yaradıb: "Qərbi Zəngəzurun Ermənistana verilməsi nəticəsində Naxçıvanın coğrafi baxımdan təcrid olunması, bu statusun hüquqi və siyasi zərurətə çevrilməsinə səbəb oldu. Lakin bu status, eyni zamanda Naxçıvanın təhlükəsizliyinin, sosial-iqtisadi və mədəni həyatının qorunmasına şərait yaratdı".

Zahid Oruc Ulu Öndər Heydər Əliyevin 1990-cı illərdə Naxçıvandakı fəaliyyəti və Ali Məclisin Sədri kimi qəbul etdiyi qərarların Azərbaycan dövlətçiliyinin xilasına yol açdığını vurğulayaraq qeyd edib: "Status və Konstitusiya hesabına torpağı qorumaq nümunəsi Heydər Əliyevin liderliyi ilə reallaşdı. O təkcə Naxçıvanı deyil, bütövlükdə, xalqımızı xilas etdi".

Millət vəkili bildirib ki, bu gün Prezident İlham Əliyev Azərbaycanın yeni hüquqi və siyasi tarixini yazır: ***"Hazırda Prezident İlham Əliyev regionda yeni siyasi reallıqlar formalaşdırır. Konstitusiya dəyişiklikləri idarəetmədə səmərəliliyi artırmaq, Naxçıvanda yerli orqanlarla mərkəzi hakimiyyət arasında ahəng yaratmaq baxımından vacibdir".***

Zahid Oruc vurğulayıb ki, dəyişikliklər Naxçıvanın coğrafi blokadadan çıxaraq Zəngəzur dəhlizi vasitəsilə ölkənin ümumi inkişafına daha fəal şəkildə qoşulmasına şərait yaradacaq: "Yeni hüquqi şərait artıq formalaşıb. Konstitusiya islahatları Naxçıvanda operativ idarəçiliyin qurulmasına, çevik qərarların qəbuluna və kadr quruculuğuna yol açır. Bu həm regionun, həm də dövlətin gələcək inkişafına xidmət edəcək".

Deputat sonda vurğulayıb ki, layihəni dəstəkləyir və onun milli maraqlara cavab verdiyinə dərin inamını ifadə edir.

## Rəşad Mahmudov: "Naxçıvana dair Konstitusiya dəyişiklikləri mühüm strateji addımdır"

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, millət vəkili Rəşad Mahmudov Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına təklif olunan dəyişikliklərlə bağlı "Şərq qapısı" qəzetinə açıqlama verib. O, layihəni hüquqi və siyasi baxımdan dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində atılmış önəmli addım kimi qiymətləndirib:

"Müzakirəyə çıxarılan bu Konstitusiya dəyişikliyi layihəsi dövlətçiliyimizin təməl prinsiplərinə, hüquqi sistemimizin suverenlik baxışına və ərazi bütövlüyü siyasətinə mühüm əlavələr və dəqiqləşdirmələr gətirir", – deyə millət vəkili qeyd edib.

Millət vəkili əlavə edib ki, Naxçıvan Muxtar Respublikası-



nın statusunun birbaşa Azərbaycan Respublikası Konstitusiyası ilə tənzimlənməsi hüquqi aydınlıq və suverenliyin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. O bu dəyişikliklərin gələcəkdə xarici müdaxilə cəhdlərinə qarşı hüquqi immunitet rolunu oynaya biləcəyini də vurğulayıb.

Açıqlamada, həmçinin Prezidentin səlahiyyətli nümayəndəliyinin Konstitusiya səviyyəsində təsbit olunmasının və "Ali vəzifəli şəxs" anlayışının ləğvinin də strateji əhəmiyyəti qeyd olunub:

"Bu dəyişikliklər mərkəzləşdirilmiş idarəetmədə muxtar ərazinin inteqrasiyasını gücləndirir, dövlət siyasətinin vahid şəkildə icrasına, idarəetmədə şəffaflığa və hüquqi qeyri-müəyyənliklərin aradan qaldırılmasına xidmət edir".

Sonda Rəşad Mahmudov qeyd edib ki, bu dəyişikliklər müasir dövlət idarəçiliyi və hüquqi sistemin inkişafı baxımından mütərəqqi yanaşmadır və Azərbaycanın daha güclü hüquqi-siyasi struktura sahib olmasına zəmin yaradacaq.



## Baş redaktordan

Sara ƏZİMOVA

# Prezidentin uzaqgörən qərarları bu gün öz təsdiqini tapır

*Sərhəd yalnız coğrafi xətt deyil. Bu, bir dövlətin nəfəs borusu, təhlükəsizliyinin ilk səddi, sabitliyinin dayaq nöqtəsidir. Qonşu bölgələrdə, xüsusilə də İran və Yaxın Şərqdə baş verən son olaylar, illərlə müzakirə mövzusu olan quru sərhədlərin bağlı qalmasının nə qədər strateji və uzaqgörən qərar olduğunu bir daha sübut etdi. Sosial şəbəkələrdə, gündəlik söhbətlərdə bəzən səslənən "Sərhədlər nə vaxt açılacaq?" sualına cavab indi daha aydındır. İran-İsrail münaqişəsinin qızışması, ölkə daxilində baş verən terror aktları, qaranlıq şəkildə həyata keçirilən qətllər və İsrailin İran ərazisində geniş kəşfiyyat şəbəkəsi qurması göstərdi ki, təhlükə təkcə müharibə meydanında deyil, elə adi gecənin qaranlığında, bir insanın yatağındadır.*

Azərbaycan bu ssenaridən uzaq durmağı bacarıb. Biz artıq sübut etmişik ki, torpaqlarımızı işğaldan azad etdikdən sonra təkcə qələbə deyil, həm də məsuliyyət qazanmışıq. Bu məsuliyyətin ən əsas hissəsi isə sabitliyi qorumaqdır. Bu gün ölkəmizin daxilində əmin-amanlıq varsa, insanlar rahat şəkildə şəhərlərində, kəndlərində fəaliyyət göstərirlərsə, bu məhz sərhədlərin ciddi şəkildə nəzarətdə saxlanılması ilə bağlıdır.

Bəziləri arqument gətirir ki, "Təhlükə göydən gəlirsə, sərhədin nə günahı?" Amma artıq bu arqumentin özü köhnəlib. Raketlərə qarşı hava hücumundan müdafiə sistemləri qurulur, amma təxribatçılara qarşı yeganə qoruyucu qalxan sərhədin bağlanması və giriş-çıxışların ciddi şəkildə tənzimlənməsidir. Hibrid müharibələr dövründə sərhədlər təkcə fiziki deyil, psixoloji baryer rolunu da oynayır.

Təsəvvür edin, hazırda sərhədlər tam açıq olsaydı, sərhəddən gələcək nəzarətsiz insan axınının yaşada biləcəyi sosial və təhlükəsizlik problemlərini necə həll edərdik? Bu, sadəcə, miqrasiya məsələsi deyil, miqrasiya fonunda daxil ola biləcək casusları, silahlıları, təxribatçıları da özündə ehtiva edə bilər.

Prezident İlham Əliyev bu təhlükələri illər əvvəl görmüşdü. O, sərhədlərin bağlı qalmasını yalnız pandemiya ilə deyil, daha dərindən, strateji təhlükəsizlik yanaşması ilə izah etmişdi. Ən maraqlısı budur ki, bu yanaşmanın nə qədər doğru olduğu son illərin hadisələri fonunda artıq öz təsdiqini tapıb. Ölkə başçısı deyirdi: ***"Quru sərhədlərin müəyyən dövrdə bağlı qalmasından sonra Azərbaycanda təhlükəsizliyin gücləndiyini görürük... Biz bu siyasət sayəsində böyük fəlakətlərin qarşısını aldıq".***

Bəli, biz bunu indi daha dərindən anlayırıq. Təhlükə qapımıza gəlməmiş, onun qarşısını almaq praqmatik düşüncənin, dövlətçilik bacarığının nəticəsidir. Sərhədi vaxtında bağlamaq, xalqın təhlükəsizliyini öndə tutmaq isə yalnız siyasi təcrübə deyil, həm də milli məsuliyyət nümunəsidir. Ona görə də bəzən azadlıqla təhlükəsizlik arasında seçim edilməli olanda ağıllı dövlətlər mütləq ikinciyə üstünlük verir. Çünki təhlükəsizlik varsa, azadlıq da daim var olacaq. Əks halda isə nə azadlıq olar, nə də dövlət.

# Naxçıvan şəhərinin Baş planının hazırlanması Böyük Britaniya şirkətinə həvalə olunub

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın əsas istiqamətlərindən biri Naxçıvan şəhərinin Baş planının hazırlanmasıdır. Bu mühüm layihənin icrası Böyük Britaniyanın şəhərsalma sahəsində böyük təcrübəyə malik "Chapman Taylor" şirkətinə həvalə olunub.



Bu günlərdə Naxçıvana gələn şirkətin direktoru Marselina Zieliniska yeni Baş planla bağlı bir sıra vacib məqamları açıqlayıb.

Bir neçə dəfə Naxçıvanda olan Marselina Zieliniska şəhəri təmiz və sakit bir məkan kimi dəyərləndirib. O, Zəngəzur dəhlizinin açılması perspektivini nəzərə alaraq, gələcəkdə Naxçıvanın daha çox insanı qəbul edəcək potensiala sahib olduğunu bildirib.

"Düşünürük ki, Naxçıvan, bəlkə də, öz hazırkı əhalisinin iki qatına qədər insanı qəbul edə biləcək potensiala malikdir. Reallığa əsaslansaq, şəhərin böyüməsi və genişlənməsi zəruridir. Bu səbəbdən də əsas məqsədimiz, ilk növbədə, şəhərin infrastruktur imkanlarını və ümumi potensialını genişləndirməkdir. Paralel olaraq, şəhərin əhatə dairəsinin və inzibati sərhədlərinin də genişləndirilməsi gündəmdədir", – deyə Marselina Zieliniska vurğulayıb.

O bildirib ki, Naxçıvan şəhərinin mərkəzi hissələrində yeni inzibati binaların inşası üçün plan hazırlanır. Şəhərdə əhalinin sayının arta biləcəyini nəzərə alaraq burada daimi yaşayan sakinlərlə yanaşı, gələcəkdə məskunlaşacaq insanlar üçün də yeni yaşayış komplekslərinin salınmasına ehtiyac yaranacaq. Bu səbəbdən əhalinin daha komfortlu yaşayışı və istirahəti üçün zəruri infrastrukturun qurulması nəzərdə tutulur.

Marselina Zieliniska qeyd edib ki, şəhərin yaşıllıq ərazilərinin artırılması istiqamətində də böyük potensial mövcuddur. Şirkətin missiyasının əsas istiqamətlərindən biri də məhz bu sahəni əhatə edir – yeni yaşıllıq zonalarının yaradılması planlaşdırılır. O, təbiətin layihə üçün əsas prioritetlərdən biri olduğunu vurğulayaraq bildirib ki, mövcud parkların heç birinə toxunulmayacaq. Xüsusilə bu iqlim şəraitində yaşıllığın önəmini nəzərə alaraq, Naxçıvançay vadisində və digər su hövzələrinin ətrafında yaşıllıq sahələrinin genişləndirilməsi məqsədəuyğundur. Beləliklə, sakinlər bu məkanlarda daha səmərəli və keyfiyyətli istirahət edə biləcəklər.

"Chapman Taylor" şirkətinin direktoru bildirib ki, Naxçıvan şəhərinin yeni Baş planının hazırlanması prosesinə yerli mütəxəssislər və sahə üzrə qurumların nümayəndələri də fəal şəkildə cəlb olunub. Onun sözlərinə görə, hər səfərləri çərçivəsində yerli qurumların nümayəndələri və şəhər sakinləri ilə mütəmadi görüşlər keçirilir.

"Səhiyyə, təhsil və digər sahələr üzrə qurumlarla yanaşı, şəhər sakinləri ilə də birbaşa ünsiyyət qururuq. Onların rəy və təkliflərinə diqqətlə yanaşır, ehtiyaclarını dinləyirik. Hazırlanacaq Baş plan bu tələbatlara uyğun şəkildə formalaşdırılır", – deyə Marselina Zieliniska bildirib.

Şirkət direktoru qeyd edib ki, yeni Baş planın əsas məqsədlərindən biri də Naxçıvanın özünəməxsus tarixi simasını və memarlıq irsini qorumaqdır: "Şəhərin tarixi görkəmini və müasirlik elementlərini uyğun şəkildə bir araya gətirmək niyyətindəyik. Bu balansın qorunmasına xüsusi önəm veririk. Planlaşdırma mərhələsində ilk olaraq strateji əhəmiyyətə malik məkanlar, tarixi abidələr və milli-mədəni irs nümunələri müəyyənləşdirilir".

Marselina Zieliniska əlavə edib ki, şəhərin hazırkı sakit və rahat mühitinin qorunması və layihənin prioritet istiqamətlərindəndir: "Naxçıvan çox gözəl və unikal şəhərdir. Buranın mövcud ab-havasını – sakitlik və rahatlığını qorumaq bizim üçün vacibdir".

# Naxçıvanda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi yaradılacaq

Dövlət sosial xidmət müəssisələrinin infrastrukturunun müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılması üçün müvafiq işlər həyata keçirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin bazasında DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılması istiqamətində layihələndirmə və satınalma prosesi tamamlanaraq podratçı təşkilatla müqavilə imzalanıb.

Mərkəzin yaradılmasında məqsəd muxtar respublikada sosial xidmət müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, sosial cəhətdən həssas əhali qruplarından olan şəxslərin yaradıcı potensialının, istedadlarının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına kömək etməkdir.

Yaradılması nəzərdə tutulan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində 2025-2027-ci illəri əhatə edən Təfsilatlı Tədbirlər Planının icrası məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin icra səlahiyyətlərinə daxil olan layihələrdən daha biridir.

# Xarici ekspertlərin Qarabağa səfərləri mühüm əhəmiyyət kəsb edir

İllərlə, nə az, nə çox, düz 70 il sovet əsarətində "şən, firavan" yaşadıq. Dünyadan bixəbər olduq. Sovetlərin əcəl zəngi çalınanda isə illərdir, zəncir vurulan əlimiz yazmaya, "Danışma", – deyilib susdurulan dilimiz isə susa bilmədi. Biz meydanlara yığılıb müstəqillik elan edəndə Naxçıvan televiziyasının efirindən bir neçə dildə məlumat verilsə də, Sədərəkdə qanlı döyüşlərdə onlarla igidimiz, körpə fidanlarımız şəhid olsa da, səsimizi nə kimsə eşitdi, nə də yazdığımızı oxudu. Nə buradan pərvazlanan azadlıq şüarını, nə də Xocalıda göylərə yüksələn fəryad səsini heç kim duymadı.

...İllərlə mübarizə apardıq, dəfələrlə xarici ekspertləri Naxçıvana və Qarabağa səfərə dəvət etdik, haqq səsimizi dünyaya çatdırmaq üçün. Amma, təəssüf ki, Ulu Öndər Naxçıvana gələnə kimi kimsə nə ayağını bu qədim, mübariz torpağa qoydu, nə də ki Qarabağa gedib tüstüsü göylərə qalxan, xarabaya çevrilən tarixi abidələrə baxdı. Nə də yayın istisində, qışın soyuğunda çadırlarda, dəmir vaqonlarda yaşayan bir milyon qaçqını gördü. Ta ki həmin günə kimi. Hələ inşası tamamlanmamış "Ümid" körpüsündən Heydər Əliyevin səyləri ilə Türkiyədən Naxçıvana gətirilən türkiyəli jurnalistlərin gəldiyi günə kimi...




Dahi rəhbər Ali Məclisin Sədri seçiləndən sonra ilk işi diplomatik əlaqələri genişləndirib xarici ekspertləri Naxçıvana gəlməyə səsləmək oldu. İlk addımı qardaş Türkiyə atdı və həmin illərdə buraya səfər edən türkiyəli jurnalistlər Naxçıvanın haqq səsini dünyaya duyurdu. Azərbaycan Prezidenti seçildikdən sonra da bu sahədə önəmli addımlar atan dahi rəhbər öncə xarici əlaqələri qaydasına salıb öz sözünü dedi. Azərbaycanı dünyaya tanıtdı.

Ötən illərdə qazandığımız söz savaşı sonralar öz bəhrəsini verdi. 1990-cı illərdə səsimizə səs verməyən dünya dövlətlərinin yerini sözümüzə hakim kəsilən dövlətlər tutdu. Şanlı Vətən savaşında dəfələrlə dünya mediasına müsahibələr verən ölkə başçısının dörd dildə dörd saat davam edən mətbuat konfransı keçirməsi isə Azərbaycan tarixində bir ilk idi. Həmin günlərdə biz həm döyüş meydanında, həm də media savaşında qalib olmuşduq. Artıq heç kim ermənilərin "zavallı" görünüşünə, hayların dünyaya yayılan "harayına" məhəl qoymurdu. Postmüharibə dövründə əsas işlərdən biri də Qarabağda aparılan işlər və düşmənin torpağımıza vurduğu ziyanın göz önünə gətirilməsi oldu.

Bu məqsədlə də Vətən savaşından keçən beş il ərzində Qarabağa və ətrafındakı rayonlara dəfələrlə müxtəlif ölkələrdən gəlmiş ekspertlərin səfəri təşkil edilib. Bu səfərlər Azərbaycanı daha yaxşı tanımağa, ölkənin nəbzini duymağa imkan yaratmaqla bərabər, düşmənin başımıza açdığı müsibətin daha dərindən təhlil edilməsinə də imkan yaradır. Necə deyərlər, "Min dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır". Xarici ekspertlər bölgəyə səfərləri zamanı düşmənin illərlə bu cənnət yurdun başına açdığı bəlaları da yaxından görür, necə çətin şəraitdə Vətənimizi işğaldan azad etdiyimizi də.

Azərbaycanın bu ərazilərdə həyata keçirdiyi bərpa işləri ilə əyani tanış olmasına imkan yaradan səfərlərin məqsədi həm də ermənilərin işğal dövründə törətmiş olduqları dağıntıları, həmçinin Azərbaycan hökumətinin bu regionun infrastrukturunun bərpası istiqamətində həyata keçirdiyi işləri nümayiş etdirməkdir. Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda çıxışı zamanı deyib: ***"Azərbaycanın tarixi ərazilərinin azad edilməsindən sonra ekspertlərin azad edilmiş ərazilərə səfəri ölkəmizin, münaqişənin tarixi haqqında, həmçinin Azərbaycanın bugünkü reallıqları barədə daha çox məlumat verir".***

Bu səfərlər həm də işğaldan azad edilmiş ərazilərə xarici investorları cəlb etmək baxımından da önəmlidir. Bütün bunların nəticəsidir ki, Qarabağın yenidən qurulmasına yerli şirkətlərlə yanaşı, xarici investorlar da böyük maraq göstərirlər. Bununla bağlı KOBIA-ya 1950-dən çox müraciət daxil olub. Müraciətlərin 1450-dən çoxu yerli, 500-dən çoxu isə xarici müraciətdir. Ümumi müraciətlərin 980-dən çoxu investisiya layihəsidir ki, onun da 48 faizi ticarət və xidmət, 22 faizi sənaye, 22 faizi kənd təsərrüfatı, 8 faizi isə tikinti, turizm, səhiyyə, təhsil və mədəniyyət sahələrini əhatə edir. Dövlətimiz sahibkarlara işğaldan azad edilmiş ərazilərin iqtisadi və investisiya potensialına dair ətraflı məlumat, peşəkar məsləhət xidməti, müvafiq dövlət qurumları ilə əlaqələndirmə, yerli tərəfdaşların tapılması istiqamətində dəstək və xidmətlər göstərilməsi üçün maraqlıdır. Və bu sahədə görülən işlərin nəticəsidir ki, bu gün Türkiyə, İtaliya, Böyük Britaniya, Pakistan və İsraildən Qarabağın bərpasına investisiya axını var. Bütün bunlar həm də dövlətimizin hərbi gücünü dünyaya nümayiş etdirir. Hamı razılaşar ki, heç kim təhlükə altında, işğal qorxusunda olan torpağa sərmayə qoymağı gözə almaz. Necə ki 30 il ərzində Qarabağa – cənnət Şuşaya, Kəlbəcərə ən güclü dünya dövləti belə kiçik bir hotel inşa etməmişdi. Çünki etiraf etməsələr belə onlar da yaxşı bilirdilər bu torpağın erməni yurdu olmadığını.

**"Şərq qapısı"**

# NDU tələbələrinin “Məzun günü”: universitet tarixinin ən çox məzun verdiyi il





*İyunun 24-də Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə “Saat Meydanı” İstirahət Mərkəzində ali təhsil ocağının tarixində sayca 55-ci “Məzun günü” keçirilib.*

Öncə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbir tanınmış teleaparıcı Abbasağa Əlizadənin təqdimatında “Bizik sabahın səsi” adlı musiqi nömrəsi sədasında universitetin tanıtım videoçarxının nümayişi ilə başlayıb. Sonra musiqi sədaları altında təntənəli məzun keçidi ilə davam edib.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev məzunları təbrik edərək deyib: “Yarım əsr yaşı olan Naxçıvan Dövlət Universiteti zəngin inkişaf yolu keçib. 1967-ci ildə cəmi 3 ştatda olan müəllim,



3 ixtisas, 102 tələbə ilə fəaliyyətə başlayıb. Bu gün isə ölkədə kampuslu universitetlərdən biridir. 108 hektarlıq ərazidə 10 fakültə, 45 kafedra, 524 nəfərlik professor-müəllim heyəti,12 minə yaxın tələbə kontingenti ilə fəaliyyət göstərir. NDU nəzdində 3 kollec, 1 Beynəlxalq Kembric Məktəbi və 1 İngilis dili Təmayüllü Gimnaziya, 2 tədqiqat institutu, 1 rəsədxana var. Müasirtipli və çoxprofilli təhsil sisteminə malik ali təhsil müəssisəsi kimi muxtar respublikada yeganə universitet olaraq 4 istiqamətdə 250-yə yaxın proqram üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlayır”.

Rektor Elbrus İsayev qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”ndan irəli gələn və xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili yönündə NDU-nun icra olunan fəaliyyətləri çərçivəsində ikili diplom layihələri icra edilir. Tədrisə, tədqiqata cəlb edilən əcnəbi professor sayı davamlı artır və birgə elmi tədqiqatlar həyata keçirilir. Universitetdə tələbəyönümlü təhsil sistemi tətbiq edilir,



dünyanın 150-yə yaxın universiteti ilə birbaşa əlaqələr qurulur, 15 ölkədən 2000-ə yaxın əcnəbi tələbə ilə ölkə universitetləri arasında ön sırada qərarlaşır.

Elbrus İsayev qeyd edib ki, 2025-ci il NDU nəzdində olan təhsil müəssisələri ilə birgə, ümumilikdə, 2313 nəfər məzun təhsilini uğurla başa vurur. Ötən illə müqayisədə 5 faiz artım olub və NDU tarixində təhsil ocağının ən çox məzun verdiyi il olaraq tarixə düşür. Eyni zamanda son 5 ilin göstəricilərinin təhlilinə əsasən universitet məzunlarının 73 faizi əmək bazarında ixtisaslarına uyğun vəzifələrdə çalışırlar. Tələbələrin qazandığı uğurların universitetin inkişaf strategiyasının ən böyük göstəricisi olduğunu qeyd edən rektor məzunlara yüksəkixtisaslı mütəxəssislər, ölkəmizin böyük ümidlər bəslədiyi gənclər, layiqli vətəndaşlar olmağı arzu edib.

Ardınca NDU nəzdindəki Musiqi Kollecinin təqdimatında “Atəşgah” adlı rəqs nömrəsi nümayiş olunub.

NDU-nun “ALABANDA” rock qrupunun ifası səsləndikdən sonra təhsil müddətində ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) yüksək olan və xüsusi fəallığı ilə seçilən məzunlara sertifikat və hədiyyələr təqdim edilib, “Məzun kötüyünə” xatirə lövhəsi vurulub.

Tədbirdə Bakıdan dəvət olunmuş “Mardan” qrupunun ifasında rəngarəng musiqi nömrələri dinlənilib.

Sonda məzunların papaqatma mərasimi və möhtəşəm atəşfəşanlıq baş tutub.

## Xaraba Gilan şəhər yerində baş qala qapısı aşkar edilib



AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Antik və orta əsrlər arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Toğrul Xəlilovun rəhbərlik etdiyi ekspedisiya 2 iyun 2025-ci il tarixdən arxeoloji qazıntılara başlayıb.

Ordubad rayonu ərazisində, Xaraba Gilan şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı Naxçıvanın orta əsrlər dövrünə aid maddi mədəniyyət nümunələri aşkar edilib.

Tədqiqat zamanı abidənin içəri şəhər hissəsinə və Narınqalaya gedən yolları aşkar olunub. Müəyyən olunub ki, yolun eni 2 metr 35 santimetrdir. Yolun giriş hissəsində üzəri gəclə suvanmış arko formalı tikili də tapılıb. Eyni zamanda yolun divarlarının gəclə suvandığı müəyyən edilib. Araşdırmalar zamanı yarımdairəvi tikililərə rast gəlinib. Bu tikililər abidənin özünəməxsus memarlıq üslubunda tikildiyini sübut edir. Onu da qeyd edək ki, yarımdairəvi tikilinin uzunluğu 8 metrə yaxın, hündürlüyü isə 1 metr 50 santimetrdir.

Abidədə aparılan tədqiqat zamanı dördkünc planlı tikili qalıqları və otaqlar da aşkar olunub. Tikili qalıqlarının öyrənilməsi zamanı məlum olmuşdur ki, abidə XII-XIII əsrlərdə dağıntıya məruz qalıb, sonradan bəzi hissələri çiy kərpiclə bərpa edilib.

Qazıntılar zamanı orta əsrlər dövrünə aid şirli və şirsiz keramika məmulatları, heyvan sümüyünün qalıqları, 1 ədəd mis sikkə və digər əşyalar aşkar olunub. Bu maddi mədəniyyət nümunələri insanların burada uzun müddət yaşadığını sübut edir.

## “Kibercinayətkarlıq və ona qarşı mübarizə üsulları” mövzusunda tədbir



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşları ilə birgə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində “Kibercinayətkarlıq və ona qarşı mübarizə üsulları” mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri Anar Əhmədov giriş sözü ilə çıxış edərək mövzunun əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək bildirmişdir ki, kibercinayətkarlıq – qlobal sosial bəla hesab olunur və insan hüquqlarına, demokratiyaya və qanunun aliliyinə, eləcə də beynəlxalq sülh və sabitliyə qarşı əhəmiyyətli təhlükəyə çevrilməklə böyük ictimai-siyasi təsirlərə malikdir. Buna görə də kibercinayətkarlığa qarşı ölkəmizdə qabaqlayıcı tədbirlər görülür və bu istiqamətdə maarifləndirmənin mühüm rolu vardır.

Tədbirdə, həmçinin Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Cinayət Axtarışı İdarəsinin Kibercinayətkarlıqla mübarizə bölməsinin əməkdaşı Əli Qasımlı, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin Maliyyə bazarı iştirakçılarının hüquqlarının müdafiəsi bölməsinin əməkdaşı Mərhəmət Bayramov və Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Hüseyn Əsgərli mövzu ilə bağlı çıxış ediblər.

Sonda iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

## Gimnaziyaya qəbul imtahanı olub



İyunun 22-də “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda prioritet istiqamətlərin icrası çərçivəsində fəaliyyətə başlayan Naxçıvan Dövlət Universitetinin nəzdində İngilis dili Təmayüllü Gimnaziyaya ikinci qəbul imtahanı keçirilib. Qəbul imtahanında muxtar respublikanın ümumtəhsil məktəblərinin 2024-2025-ci tədris ili üzrə V sinfini bitirən şagirdləri iştirak ediblər.

Gimnaziyaya qəbul üçün 429 nəfər sənəd təqdim edib. İmtahanda Azərbaycan dili, riyaziyyat, ingilis dili, tarix və təbiət fənlərindən, ümumilikdə, test formatında 100 sual təqdim olunub.

Gimnaziyaya müsabiqə yolu ilə aparılan qəbul imtahanının nəticələri ilk həftə ərzində Naxçıvan Dövlət Universitetinin rəsmi internet saytında *(www.ndu.edu.az)* yerləşdiriləcək.

Nəticələrə əsasən ən yüksək bal toplayan 30 qız və 30 oğlan olmaqla, ümumilikdə, 60 şagird gimnaziyaya qəbul olacaq.

Qeyd edək ki, 2024-2025-ci tədris ilində keçirilən buraxılış imtahanında ölkə üzrə maksimal nəticə göstərən 9 nəfərdən biri, gimnaziyanın şagirdi Rüqayyə Hüseynli 300 bal toplayaraq Naxçıvan üzrə birinci olub. Eyni zamanda ümumi orta təhsil pilləsini başa vuran 61 şagirddən 47-si fərqlənmə attestatına layiq görülüb, 58 şagird isə 200-dən yuxarı nəticə göstərib. Gimnaziyanın builki məzunlarının isə 34 nəfəri tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında 200-dən yuxarı bal toplayaraq 94 faizlik nəticə əldə edib. İmtahanlarda qeydə alınan ən yüksək nəticə 290 bal olub. Ümumilikdə, 24 şagird tam orta təhsil haqqında fərqlənmə attestatına layiq görülüb.



## Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası ilk həmkarlar ittifaqı üzvləri ilə görüş keçirib

İyunun 23-də “Duzdağ” hoteldə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə ilk həmkarlar ittifaqı üzvləri ilə görüş keçirilib. Tədbirdə 200 nəfərə yaxın həmkarlar ittifaqı üzvü iştirak edib.

Görüş Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev



çıxış edərək son dövrdə görülmüş işlər, təşkil olunmuş tədbirlər və əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, şura yay mövsümündə yeni sosial layihəyə start verir. Layihə çərçivəsində ittifaq üzvləri yollayışların yalnız 15 faizini ödəməklə şənbə və bazar günləri Ağbulaq İstirahət Mərkəzində yaddaqalan həftəsonları keçirə biləcəklər.

Qəzənfər Abdullayev bildirib ki, layihənin əsas məqsədi həmkarlar ittifaqı üzvlərinin asudə vaxtının səmərəli təşkili, onların istirahətinin təmin olunması və ictimai həmrəyliyin gücləndirilməsidir.

Görüşün davamında ilk həmkarlar ittifaqı üzvləri ilə açıq dialoq formatında müzakirələr aparılıb, səsləndirilən suallar şura əməkdaşları tərəfindən cavablandırılıb.

Tədbirdə, həmçinin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən vətəndaşların sanatoriya-yollayış imkanlarından istifadəsini asanlaşdırmaq məqsədilə yaradılmış e-AHİK elektron rezervasiya sistemi haqqında videoçarxlar nümayiş olunub.



# Qüdrətli ordu və xalq birliyi Azərbaycanın zəfər modelidir

Müstəqillik uğrunda mübarizə aparan hər bir xalq üçün ordu milli iradənin, dövlət suverenliyinin və tarix qarşısında öhdəliklərin əsas dayağıdır. Azərbaycanın müasir inkişaf modeli isə bu məfhumları daha da zənginləşdirir. Bu gün artıq heç kimə sirr deyil ki, Azərbaycanın Vətən müharibəsindəki qələbəsi yalnız hərbi gücün nəticəsi deyil, eyni zamanda dövlətin bütün sahələrdə apardığı məqsədyönlü siyasət, xalqın birliyi və ordunun peşəkarlığı sayəsində mümkün olmuşdur.

Azərbaycan Respublikasının müstəqillik tarixində ordu quruculuğu prosesinin əsaslı dönüş nöqtəsi Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə oldu. 1990-cı illərin əvvəllərində Azərbaycanda nizami ordu yox idi, silahlı dəstələr müxtəlif maraq qruplarının əlində alətə çevrilmişdi və ölkənin suverenliyinə, ərazi bütövlüyünə real təhlükə yaranmışdı. Belə bir şəraitdə xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev qısa müddət ərzində ölkədə nizami və peşəkar ordu quruculuğu istiqamətində sistemli və planlı addımlar atdı. Bu proses müstəqil Azərbaycanın gələcək müharibələrə və təhlükələrə hazırlığını təmin edən strateji mərhələyə çevrildi.

Ümummilli Liderin 1971-ci ildə böyük zəhmətlə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Lisey məhz bu ordu quruculuğu siyasətində mühüm baza rolunu oynadı. Bu təhsil ocağı Azərbaycanda hərb sənətinə marağın artmasına, milli zabit kadrlarının hazırlanmasına zəmin yaratdı. Ulu Öndərin uzaqgörənliyi sayəsində azərbaycanlı gənclərin həm Bakıda yerləşən hərbi məktəblərə, həm də SSRİ-nin digər hərbi ali məktəblərinə güzəştli şərtlərlə qəbul olunması təmin edilmişdi. Bu addımların əsas məqsədi Azərbaycan gəncliyində vətənpərvərlik ruhunu yüksəltmək və gələcəyin zabit kontingentini yetişdirmək idi.

Ulu Öndər deyirdi: ***"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır.Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər".***

1998-ci ildə Silahlı Qüvvələr Gününün rəsmi dövlət bayramı kimi təsis olunması, 1999-cu ildə Azərbaycan Hərbi Akademiyasının yaradılması, həmçinin ölkəmizin 1994-cü ildən etibarən NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, 1996-cı ildən "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildən isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşulması Ümummilli Liderin beynəlxalq yönümlü və modern ordu konsepsiyasının tərkib hissəsi idi. Bu addımlar Azərbaycanın müdafiə sisteminin təkcə daxili deyil, beynəlxalq müstəvidə də gücləndirilməsinə xidmət edirdi.

Ulu Öndər Heydər Əliyev bu siyasətin mahiyyətini belə izah edirdi: ***"Ordu olmalıdır, ona görə yox ki, biz hansısa bir dövlətə hücum etmək, kiminsə torpağını zəbt etmək istəyirik. Yox. Biz sülhsevər dövlətik... Biz öz torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək istəyirik... Bunun üçün və gələcəkdə dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün güclü ordumuz olmalıdır.Biz ordu quruculuğu işi ilə məşğul oluruq".***

## Prezident İlham ƏLİYEV:

***"Müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir."***

2003-cü ildən başlayaraq Prezident İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu dövlət siyasətinin prioritet sahələrindən birinə çevrildi. Azərbaycanın hərbi potensialı təkcə silah və texnika ilə deyil, komanda strukturu, hərbi təlim sistemi, döyüş psixologiyası və sosial təminat sahələri ilə də gücləndirildi.

44 günlük Vətən müharibəsi Azərbaycanın hərbi və siyasi tarixində dönüş nöqtəsi olmaqla yanaşı, ordu ilə xalqın və dövlətin birliyinin parlaq nümunəsinə çevrildi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilən strateji əməliyyatlar, milli ruhun yüksəkliyi, ordunun peşəkarlığı, xalqın əsgərinə olan dəstəyi bu zəfəri mümkün etdi. Prezident İlham Əliyev bu birliyin mahiyyətini belə ifadə etmişdir: ***"Biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik... Biz Silahlı Qüvvələr Gününü artıq müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik".***

Azərbaycanın ordu modeli müasir dünyada siyasi qərarların hərbi resurslarla dəstəkləndiyi, milli ideologiyanın ordu daxilində kökləndiyi nümunəvi təcrübədir. Qalib ordu ideyası, sadəcə, torpaq azad etmək deyil, dövlətin beynəlxalq mövqeyini gücləndirmək, xalqın mənəvi ruhunu yüksəltmək, gələcək nəsillərə örnək qoymaq kimi strateji məqsədlərlə vəhdət təşkil edir.

Vətən müharibəsindən sonra həyata keçirilən tədbirlər – Komando briqadalarının yaradılması, Milli Müdafiə Universitetinin təsis olunması, müasir texnologiyalarla təchizatın artırılması, Türkiyə modelinə uyğunlaşma və gənclərin hərbi təhsilə cəlbi – Azərbaycanın uzunmüddətli hərbi-siyasi strategiyasının davamlılığını təmin edir.

Eyni zamanda hərbi sahədə aparılan sosial islahatlar, məsələn, hərbi qulluqçulara mənzil təminatı, aylıq maaşların artırılması, təqaüd sisteminin genişləndirilməsi də dövlətin ordunu yalnız döyüş meydanında deyil, gündəlik həyatında da dəstəklədiyini göstərir.

Bu gün Azərbaycanın ordu modeli dünyanın aparıcı hərbi institutlarında tədris olunur. ABŞ Hərbi Akademiyası, NATO Strateji Planlaşdırma mərkəzləri, hətta bəzi Qərb universitetləri Azərbaycan Ordusunun 44 günlük müharibədə tətbiq etdiyi taktikaları innovativ müharibə nümunəsi kimi öyrənir.

Azərbaycan bu zəfəri xalqın birliyi, dövlətin qətiyyəti və ordunun gücü ilə əldə etmişdir. Bu birlik – "xalq-dövlət-ordu" vəhdəti – müasir Azərbaycan Respublikasının siyasi kimliyinin ayrılmaz tərkib hissəsidir.

Müstəqilliyin ilk illərində nizamsız silahlı dəstələrdən ibarət sistemsiz ordu modelindən bu gün beynəlxalq aləmdə nümunə göstərilən müzəffər Orduya sahib olan Azərbaycan, zəfərin yalnız silahla deyil, siyasi uzaqgörənliklə qazanıldığını sübut etmişdir.

Qüdrətli ordu və xalq birliyi tariximizin şərəfi, bu günümüzün qüdrəti və gələcəyimizin zəmanətidir.

**Əziz QASIMOV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***



# Mövzu Vətəndir

*İllər öncə, hələ torpaqlarımız düşmən işğalında olan günlərdən birində cəbhə kəndində – Haramı düzündən keçən yolda irəliləyən avtomobildən yolboyu sıralanan səngərlərə, onların içində dayanıb soyuq, qar demədən Vətəni qoruyan oğulları və cəbhə xəttinin yardığı torpağımıza həsrətlə baxırdım. Aydın görünən Ağdamın Qarakənd qəsəbəsində erməni maşınlarının bizim torpağımızda var-gəl etdiyini görmək ürəyimdəki düşmənə nifrət hissini daha da artırırdı. Ürəyimdə: “Ey Vətən, parçalanıb düşmənə pay verilən Azərbaycan, görəsən nə vaxt qayıdacaq bir parçan?” – deyirdim.*



Yolun kənarında dəstə ilə dayanıb komandiri dinləyən əsgərlərin lap yanında avtomobil dayananda fikrimdən ayıldım. Zabit yoldaşları ilə görüşmək üçün avtomobildən enən komandirin “Salam, işlər necədir, dərsiniz nədir?” sualına əsgərlərinə təlim keçən komandirin cavabı belə oldu: “Mövzu Vətəndir”. Həmin gün ürəyimdə bir rahatlıq hiss etdim. Qayıdacaq bu torpaqlar dedim. Və “Mövzu Vətəndir” kəlməsi möhür oldu düşüncələrimə. Həmin gün əsgərlərə Vətən mövzusunda dərs keçən zabitin gecə saatlarında düşmən hücumunun qarşısını alarkən şəhidlik zirvəsinə ucaldığı xəbərini eşidəndə bir daha əmin oldum ki, mövzusu Vətən olan oğullar bir gün bu torpaqları mütləq azad edəcək. Və elə də oldu.

Bizim üçün hər zaman ən dərin mövzu Vətən olub. Ta qədimdən at belində əlində qılınc torpağı qoruyub oğullarımız və qızlarımız. Ayaq basdığımız yerə Vətən deyəndən bir ovuc torpaq bizim üçün canımızdan belə əziz olub. Tarixin bütün dövrləri Azərbaycan igidlərinin qəhrəmanlıq səhifəsi ilə doludur. Əlincədən Şuşaya kimi hansı səhifəni vərəqləsək, Vətən üçün döyüşən qəhrəman bir ordu görərik. Dünya dəyişib min sifətə düşsə də, yenə də bizim mövzumuz, ilk dərsimiz Vətən olub. Bu xalqın ən çətin günlərində hər evi səngərə, hər vətəndaşı əsgərə çevrilib.

Biz Əlincədə, Şuşa qalasında düşmənə diz çökdürəndə də belə idi, ötən əsrin əvvəlində də, sonunda da, Naxçıvanda düşmənə qarşı sipər olanda da.

Bəli, həmin günlərdə – analarımız soyuq, şaxtalı günlərdə gecələr çıraq işığında, yun corab toxuyub, səhərlər qara unun xəmirini yaş odunla qaladığı ocaqda çörək bişirib səngərə göndərəndə. Nişanlı qızlarımızın nişan üzüyünü silahla dəyişdiyi günlərdə. Xalqının səsinə səs verən Vətən oğlunun Vətənin bir parçasının başı üstə günəş kimi doğulduğu illərdə. Azərbaycan Ordusunun yarandığı həmin tarixi anlara şahid olduğumuz illərdə.

Milli ordunun ilk paradının Naxçıvanda keçirildiyi həmin günlərdə Ulu Öndərin ən böyük arzusu güclü ordu qurmaq idi. O bunu bacardı. Təməli Naxçıvanın ən çətin günlərində atılan milli ordu güclənib Qafqazın sarsılmaz ordusu adını qazandı.

İgid oğullarımız Şuşa dağlarına döyüşə-döyüşə, şəhidi çiynində qalxanda, Azərbaycan əsgəri üçrəngli bayraq enməsin deyə sinəsini gülləyə sipər edəndə, Zəngilandan uşaqların gülüşü, Ağdamın Cümə məscidindən azan səsi gələndə, Qarabağ atı Cıdır düzündə şahə qalxanda bir daha əmin olduq ki, bu xalqın ən böyük sevgisi torpaq, mövzusu isə hər zaman Vətəndir.

✍ Ramiyə ƏKBƏROVA

# Vətən sevgisinin, hərbi qüdrətin və tarixi yaddaşın məkanı



✍ Rafiq TƏHMƏZ

Azərbaycanın hərb tarixində özünəməxsus yeri olan Naxçıvan bu gün təkcə coğrafi deyil, mənəvi və strateji mövqeyi ilə də xüsusi önəm daşıyır. Hər qarışı qəhrəmanlıqla yoğrulan bu qədim torpaq, yalnız canlı qəhrəmanları ilə deyil, həm də tarixə şahidlik edən abidələri ilə də danışır. Bu abidələrin ən yenisi və təsirlilərindən biri də Naxçıvan Döyüş Şöhrəti Muzeyidir – vətən sevgisinin, hərbi qüdrətin və tarixi yaddaşın bir məkanı.

Bu muzey muxtar respublika ərazisində yaradılmış ilk hərbi profilli açıq səma altındakı muzeydir. Naxçıvan hərbi şəhərciyində yerləşən və 13 min kvadratmetrlik geniş ərazini əhatə edən bu kompleks, sadəcə, eksponatların sərgiləndiyi bir məkan deyil – o, döyüş ruhunun canlı sərgisinə çevrilmiş bir vətənpərvərlik dərsliyidir.

İlk vaxtlar 26 adda eksponatla fəaliyyətə başlayan muzey, qısa müddətdə genişləndirilərək müxtəlif adda silah, texnika və qurğunu özündə cəmlədi. Burada yalnız metal deyil, tarix və qəhrəmanlıq nümayiş olunur.

Muzeyin açıq meydanında düzülmüş ağır texnika və silahlar keçmişin səssiz şahidləridir. Onlar danışmasa da, hər birinin yaddaşında Vətən uğrunda keçilən yol var. Burada nümayiş olunan texnikalar arasında gəzərkən baxışlar gah Azərbaycanın hava məkanını qoruyan, düşmənə gözdağı olan güclü “S-75”, “S-125” və “S-200” zenit raket kompleksləri sisteminə, gah da daşıyıcıdan çox, səmanın müdafiəçisi olan “Mi-8T” döyüş-nəqliyyat vertolyotunun məğrur duruşuna cəmlənir. Sərhədləri qoruyan texniki qəhrəmanlar, göydə şahin kimi süzərək Vətənin hava sərhədlərinin keşiyində duran “SU-17” və “MİQ-21” döyüş təyyarələri və daha nələr-nələr.

Haubitsalar, toplar, minaatanlar – tarixboyu ordumuzun döyüş qüdrətinin əsas dayaqları. Tanklar, piyadanın döyüş maşınları, zirehli transportyorlar, mühəndis texnikaları və hərbi avtomobillər, bir sözlə, Azərbaycanın quru qoşunlarının güc simvolları.

Bu texnikaların bir çoxu vaxtilə döyüş növbətçiliyində iştirak edib, sərhədlər qoruyub, müstəqilliyimizin və ərazi bütövlüyümüzün keşiyində dayanıb. Hər bir texnika audioməlumatlandırma sistemi ilə təchiz edilib ki, ziyarətçilər onun tarixi, texniki göstəriciləri və döyüş yolu haqqında ətraflı məlumat ala bilsinlər.



Naxçıvan Döyüş Şöhrəti Muzeyi yalnız keçmişə baxış deyil, gələcəyə verilən mesajdır. Bu muzeyə gələn hər bir məktəbli, hər bir gənc burada silahın parıltısından çox, Vətənə sevginin nə qədər möhkəm, qəhrəmanlığın nə qədər dərin olduğunu anlayır. O, hərbi ruhun yaşadılması, milli özünüdərkin formalaşması baxımından nadir nümunədir.

Əraziyə daxil olan kimi hiss edirsən ki, burada təkcə dəmir parçaları deyil, bir xalqın müqaviməti, inamı və qüruru sərgilənir. Hər eksponatın arxasında bir əsgərin izi, bir komandanın əmri, bir şəhidin son nəfəsi yatır.

26 İyun – Silahlı Qüvvələr Günü təkcə bayram deyil, həm də xalq və ordu birliyinin simvoludur. Bu gün biz yalnız bugünkü qüdrətli ordumuza baxmır, həm də onu bu səviyyəyə gətirən tarixə nəzər salırıq. Naxçıvan Döyüş Şöhrəti Muzeyi bu baxış üçün ideal bir məkandır – o, keçmişi yaşadır, gələcəyi tərbiyə edir, bu günə güc verir.

Çünki vətənpərvərlik təkcə döyüş meydanında deyil, tarixi yaşatmaqla, qəhrəmanları xatırlamaqla, gələcək nəsillərə doğru örnəkləri çatdırmaqla yaşayar.





# Yol gedir Zəngəzura

## Bu yol haqqın, ədalətin təntənəsi, simvolu olacaq...

Erməni işğalçılarına qarşı Böyük Zəfərimiz itməkdə olan inamımızı diriltdi, qürurumuzu qaytardı. Başımız uca, üzümüz ağ, alnımız açıq oldu. Cəmi 44 gün ərzində qəhrəmanlıq salnaməmizin ən parlaq səhifəsi yazıldı. Tarixin ən böyük ədalətsizliklərindən birinə son qoyuldu. Erməni qəsbkarlarının viran qoyduğu və 30 il tapdağında saxladığı Vətən torpaqlarımız azad edildi. Haqqın, ədalətin təntənəsi kimi üçrəngli bayrağımız Qarabağımızda, erməni vandalizminin xarabazarlığa çevrildiyi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Ağdam, Kəlbəcər rayonlarında dalğalandı. Xarıbülbül Zəfər rəmzi kimi yenidən pöhrələdi, çiçək açdı. Azad səmamızda milli muğamımız mədəniyyət beşiyimiz Şuşa dağlarında əks-səda verdi.

Böyük Zəfərin qısa zaman kəsimində, həm də mürəkkəb relyef şəraitində qazanılması, ilk növbədə, dövlətimizin iqtisadi qüdrətinin, siyasi gücünün, milli-mənəvi qüdrətinin, xalqımızın sarsılmaz, monolit birliyinin, Azərbaycançılıq məfkurəsindən qaynaqlanan vətənpərvərlik ruhunun göstəricisi idi. Təbii ki, bu, Ali Baş Komandanımızın mahir sərkərdə qətiyyəti, şəhidlərimizin, qazilərimizin şücaəti, onların Vətənə, yurda sevgisi, torpağa övlad məhəbbətinin böyüklüyünün təcəssümü olmaqla dünyanı heyrətdə qoydu. Hər bir azərbaycanlı üçün fəxarət, qürur, iftixar yaşadan, həm də odur ki, erməni faşizminin viran qoyduğu, çöl-biyabana çevirdiyi yurdlarımız eyni əzmlə, vətəndaş qayəsi ilə daha sivil, müasir arxitektura və memarlıq üslubunda yenidən qurulur, abadlaşır, cənnətməkan mahallara çevrilir.

Bəli, öz külündən doğulan Simurq quşu Oğuz yurdlarında həyat yenidən cana gəlir. İnkişafa, tərəqqiyə yol açan infrastruktur qurulur, mühüm sənaye mərkəzləri yaradılır, müasir şəhərsalma prinsipləri əsasında şəhərlər, qəsəbələr salınır, kəndlər inşa edilir, ictimai, mədəni, sosial obyektlər istifadəyə verilir, məşğulluq kimi vacib məsələlər həllini tapır. Qədim türk yurdlarında həyat qaynayır, yaşam ritmi öz axarına düşür. İllərdir, məcburi köçkün ağrı-acısı yaşayan yurddaşlarımız Böyük Qayıdış marafonu axarında sevinclə, qürurla doğma yerlərinə qayıdır, evlərinin işığını yandırırlar.

Böyük Zəfərin gətirdiyi bu möhtəşəmliyin səs-sədasından Qərbi Azərbaycan torpaqlarında uyuyan əcdadlarımızın, babalarımızın ruhları şadlanır. Yüz ildən artıqdır, Azərbaycanımızın əsas ərazisindən ayrı düşən qədim Naxçıvan torpağında da inam toxumları göyərib, blokadanın ağrılarından qurtarmaq ümidinin şöləsi alovlanır...

Təəssüf ki, 2020-ci il 10 noyabr tarixdə qəsbkar ermənilər məğlub olub imza atdığı kapitulyasiya aktının 9-cu bəndini yerinə yetirməkdən hələ ki, yayınmaqda davam edir. Öz ağalarının və bu bölgədə maraqları kəsişən dövlətlərin təhriki ilə Zəngəzur dəhlizinin açılması məsələsini müxtəlif bəhanələrlə uzadır. Halbuki Zəngəzur da qədim türk-Oğuz torpağıdır. Tarixin bütün dönəmlərində bu mahalda Oğuz türkləri yaşayıb.

Taleyimizin qara yazısı Türkmənçay müqaviləsi ilə parçalanan Azərbaycan torpaqlarına, o cümlədən Zəngəzura erməni ailələri köçürülüb və qarayaraya çevrilib, xalqımıza düşmən kəsiliblər.

Ötən əsrin əvvəllərində erməni düşmənçiliyi daha aqressiv müstəvidə davam etdirilib. Talançılıq, soyğunçuluq və qanlı qırğınlarla müşayiət olunub. Erməni silahlıları tərəfindən evlər dağıdılıb, yurdlar viran qoyulub, insanlar qətlə yetirilib. Tarixi faktlar da təsdiqləyir ki, o illərdə Zəngəzur bölgəsində 115 kənd yerləyeksan edilib, demək olar ki, bütün yaşayış məskənləri xaraba qoyulub, soydaşlarımız soyqırımına düçar edilib. Bu vəhşiliyin sonu isə böyük haqsızlıqla, tarixi ədalətsizliklə nəticələnib. Tarixən türk-Oğuz torpağı olan Qərbi Zəngəzur bolşevik havadarlarının təhriki ilə Ermənistana birləşdirilir. Sonrakı illərdə – sovet dönəmində də bu mahalda yaşayan soydaşlarımız sıxışdırılıb, repressiya, deportasiyalara məruz qoyulub, Zəngəzur açıq, gizli formada erməniləşdirilib.

Bu il yanvar ayının 7-də ölkə Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bu məsələyə də toxunaraq bildirdi: ***“...Zəngəzurda azərbaycanlılar əksəriyyət təşkil edirdi. Bəli, əksəriyyət yox, tam azərbaycanlılardan ibarət olan kəndlər idi. Biz XX əsrdə üç dəfə deportasiyaya məruz qaldıq və hər dəfə bu deportasiya böyük fəsadlara gətirib çıxarırdı. 1920-ci ilin noyabrında Qərbi Zəngəzur Azərbaycandan ayrıldı və Ermənistana birləşdirildi”.***

Beləcə, reallaşdı böyük güclərin məkrli siyasəti. Türk dövlətləri arasında yol bağı qırıldı. Böyük Turan gerçəkləşməsi Zəngəzurun itirilməsi ilə tilsimə salındı. Ən ağır zərbə parçalanmış Azərbaycana dəydi. Qədim Naxçıvan torpağı ayrı düşdü anamız Azərbaycandan. Obrazlı desək, türk-Oğuz ellərinin binəsi olan Zəngəzur xəncər kimi öz torpağımızın sinəsinə saplandı.

Türk dünyasının coğrafi baxımdan ayrı qalmasına yönələn bu ədalətsiz siyasətin qurbanı oldu Zəngəzur mahalı. Lakin gec və ya tez haqqın, ədalətin şər üzərində qələbəsi mütləqdir, həqiqət prizmasından baxsaq, deyə bilərik ki, zaman bu ədalətsizlik üzərində də haqqın təntənəsinə rəvac verəcək. Zəngəzur dəhlizi bütün maneələrə baxmayaraq, açılacaq. Artıq bu istiqamətdə mühüm taleyüklü tədbirlər görülür, əməli işlər gerçəkləşir. Bu yol təkcə Azərbaycanın Naxçıvanla körpü əlaqəsini gerçəkləşdirməyəcək, eyni zamanda Böyük Turan yolunun bir parçası kimi türk dövlətləri ilə əlaqələri də daha üst qata çıxaracaq. Zəngəzur dəhlizinin daha önəmli tərəfi isə onun Asiya ilə Avropanı birləşdirən mühüm tranzit yola çevrilməsi olacaq. Hələliksə, böyük güclərin, dövlətlərin maraq dairələrinin kəsişdiyi məsələyə dönüb Zəngəzur dəhlizi. Lakin bu və ya müəyyən səbəblərdən yubansa da, açılması həqiqəti gerçəkləşəcək. Bunu Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində də inamla vurğuladı: ***“...Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur. Sadəcə olaraq, onlar 10 noyabr Bəyanatının müddəalarını yerinə yetirməlidirlər. Orada hər şey açıq-aydın göstərilib. Biz dörd ildən çoxdur ki, səbr göstəririk. Dörd ildən çoxdur istəyirik ki, bu danışıqlar yolu ilə həll olunsun. Biz nə qədər gözləməli olacağıq və nə üçün gözləməliyik? Yəni onlar bütün bunları nəzərə almalıdırlar”.***

Bəli, ölkə başçımız İlham Əliyevin təbirincə desək, Ermənistan dövləti istəsə də, istəməsə də Zəngəzur dəhlizi reallaşacaq. Çünki bu bizim tarixi təməl haqqımızdır. Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının nəqliyyat kommunikasiya blokadasına salınması ədalətsizliyinə son qoyulmalıdır.

Ölkə Prezidenti bu il 5 mart tarixində Türkiyəyə işgüzar səfərində İğdır-Naxçıvan Təbii Qaz Kəmərinin Naxçıvanda enerji təhlükəsizliyinin təminindəki mühüm rolundan, həmçinin kəmərin beynəlxalq əhəmiyyətindən danışdı və Zəngəzur dəhlizi barədə də bəhs edərək dedi: ***“Naxçıvan qədim Azərbaycan torpağıdır. Ancaq artıq bir əsrdən çoxdur ki, Azərbaycanın əsas hissəsindən ayrılıb.***

***Bir əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvanda yaşayan bizim soydaşlarımızın həyatına çox mənfi təsir göstərmişdir.***

***Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda, Naxçıvanı blokadaya aldı. Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular”.***

O dövrdə erməni quldurları Naxçıvan torpağına ayaq basmasa da, Zəngəzurdan keçən nəqliyyat kommunikasiyalarının kəsilmə səbəbindən Naxçıvan tam blokada məngənəsinə salındı. Bu haqsızlıq ucbatından ən ağır məşəqqətlər yaşadı naxçıvanlılar. “Dəmir yumruq” rəmzli Böyük Zəfərimizin bəhrəsi olan Zəngəzur dəhlizi, nəhayət ki, bu ədalətsizliyə də son qoyacaq. Çox mühüm əhəmiyyətli bu geosiyasi, iqtisadi keçid təkcə regionun deyil, eləcə də dünya iqtisadiyyatının dinamik inkişafına təsir göstərəcək. Təbii ki, tranzit nəqliyyat yolu keçdiyi hər bir ölkədə, bölgədə, o cümlədən Ermənistanın özündə yerli inkişafa stimul verəcək. Mənfur niyyətləri səbəbindən regionda bütün qlobal layihələrdən kənarda qalan ölkənin iqtisadi geriliyinə, tənəzzülünə müsbət təsirini göstərəcək.

Milli, tarixi və gələcək maraqlara cavab verən son dərəcə perspektiv əhəmiyyətli bu layihə doğma Naxçıvanımızın inkişafında, tərəqqisində yeni üfüqlər açacaq. Muxtar respublika yüksəlişin uğurlu mərhələsinə qədəm qoyacaq, onun daxili iqtisadi potensialının ölkə iqtisadiyyatına daha sıx inteqrasiyasını təmin edəcək. Bu torpağın zəngin təbii resurslarından, tam mənada, səmərəli istifadəni artıracaq, sənayeləşməni sürətləndirəcək, yeni istehsal sahələrinin, sənaye zonalarının açılmasına, işsizliyin minimuma endirilməsinə rəvac verəcək. Naxçıvan sosial, mədəni, mənəvi yüksəliş tempini artıracaq. Bu, uzun illərdir, blokada məngənəsində sıxılan, çırpınan insanların maddi rifahının, yaşayış səviyyəsinin daha da yüksəlməsini təmin edəcək.

Beləcə, sarsılmaz inancımız, böyük inamımız, yaşıl ümidlərimiz işığında yol gedir Zəngəzura. Bu yol haqqın, ədalətin təntənəsinə çevriləcək. Azərbaycanı ayrılmaz parçası Naxçıvanla birləşdirəcək.

Yolumuzun işıqlı, aydın, abad və rəvan olması diləyi ilə.

**Adilə SƏFƏROVA**
*Azərbaycanın Əməkdar mədəniyyət işçisi*



# Əgər biz uşaqları düzgün yönləndirməsək, onları media selinin içinə təlimatsız atmış olarıq



*Rəqəmsal texnologiyanın həyatın ayrılmaz hissəsinə çevrildiyi dövrdə uşaqların media ilə ilk tanışlığı çox erkən yaşlara təsadüf edir. Televiziya ekranları, planşetlər, smartfonlar artıq oyuncaqlar qədər cazibədar və əlçatandır. Belə bir zamanda media savadlılığının uşaqlara erkən yaşdan aşılanması, onların həm psixoloji, həm də sosial inkişafı üçün həyati əhəmiyyət daşıyır.*

*Media təkcə xəbər portalları və televiziya ilə məhdudlaşmır. Sosial şəbəkələr, "YouTube" videoları, onlayn oyunlar da bu anlayışın tərkib hissəsidir. Bütün bu kanallar vasitəsilə uşaqlar məlumat əldə edir, fikir formalaşdırır, davranış modelləri mənimsəyirlər. Amma buradakı problem odur ki, hər təqdim olunan informasiya etibarlı, hər kontent isə zərərsiz deyil.*

Uşaq psixoloqu Aysun Cəfərli bildirir ki, rəqəmsal dövrün uşaqları artıq doğmalarından əvvəl telefon və planşetlə tanış olurlar. Onların əllərində güclü texnologiya, qarşılarında isə milyonlarla informasiya var. Lakin bu informasiyanın düzgün süzgəcdən keçməsi və uşaq şüuruna sağlam şəkildə yerləşməsi üçün yalnız texniki bacarıq kifayət etmir. Media savadlılığı uşağın həm məlumatı təhlil etməsi, həm özünü qoruması, həm də sağlam şəxsiyyət kimi formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

Psixoloqların fikrincə, media savadlılığı yalnız informasiyanı qəbul etmək bacarığı deyil, həm də onu anlamaq, təhlil etmək, qiymətləndirmək və yaradıcı şəkildə istifadə etmək qabiliyyətidir. Bu bacarıq texniki biliklərlə yanaşı, emosional zəka, tənqidi düşüncə, özünüifadə və rəqəmsal etika ilə sıx bağlıdır. Xüsusilə uşaqlarda bu bacarığın inkişaf etdirilməsi onların həm təhlükələrdən qorunmasına, həm də rəqəmsal dünyada psixoloji və sosial inkişafına töhfə verir.

Sosial media uşaqların psixologiyasına müxtəlif istiqamətlərdə təsir göstərir. Sosial şəbəkələrdə gördükləri "mükəmməl həyat", "daima xoşbəxt insanlar", "filtrli gözəllik" obrazları uşaqlarda sosial müqayisə və özünə münasibət hisslərini dərinləşdirir. Onlar özlərini bu obrazlarla müqayisə edərək yetərsiz hiss edə bilər, bu isə bədən imici problemlərinə, özünə hörmətin azalmasına, bəzən isə erkən yaşda depressiv duyğulara səbəb olur. Eyni zamanda, sosial mediada rədd edilmə, az bəyənilmə və ya kiber zorakılığa məruz qalmaq uşaqların emosional tənzimləmə bacarığına mənfi təsir edir, onlarda stres, anksiyete və özünəqapanma hallarını artırır. Yeniyetmələrin kimlik formalaşdırma mərhələsində isə sosial media həm dəstək, həm də çaşqınlıq mənbəyi ola bilər. Özlərini yalnız sosial medianın təsdiqi ilə dəyərləndirən uşaqlar, autentik kimliklərini tapmaqda çətinlik çəkə bilərlər.

Uşaqların sosial mediaya çıxış yaşına uyğun şəkildə yanaşmaq vacibdir. Erkən yaşlarda ekran istifadəsi, ümumiyyətlə, tövsiyə olunmur. Uşağın ilk öyrənmə mərhələsində o, real dünyanı toxunaraq, eşidərək və hərəkətlə kəşf etməlidir. Daha sonrakı yaşlarda isə ekran istifadəsi valideyn nəzarəti altında və məhdud vaxt çərçivəsində olmalı, izlənilən məzmunlar edukativ və interaktiv xarakter daşımalıdır. Valideynin özü ilə birgə izləməsi, məzmunu izah etməsi və uşaqla ünsiyyət qurması bu mərhələdə olduqca vacibdir. Sosial mediaya marağın artdığı yeniyetməlik dövründə isə açıq ünsiyyət, məlumatlandırma və şəxsi sərhədlərin öyrədilməsi ön plana çıxmalıdır.

Uşaqlarda media savadlılığını formalaşdırmaq üçün valideynlər və müəllimlər bir sıra yanaşmalara diqqət yetirməlidirlər. Uşaqlarla birlikdə kontent izləmək və sonra onu birlikdə müzakirə etmək, onların fikrini soruşmaq və məntiqi nəticələr çıxarmağa təşviq etmək düşüncə bacarığını gücləndirir. Onlara duyğularını ifadə etməyi öyrətmək, baxdıqları videolar və xəbərlərlə bağlı hiss etdiklərini bölüşmək emosional fərqindəlik yaradır. Eyni zamanda uşaqlara sosial media davranış qaydaları, rəqəmsal etika və onlayn ünsiyyət mədəniyyəti izah olunmalıdır. Əgər bir uşaq onlayn mühitdə xoşagəlməz situasiya ilə qarşılaşarsa, bu zaman necə davranmalı olduğunu bilməlidir. Ailə daxilində texnologiyasız vaxtların ayrılması, birgə kitab oxuma, oyun oynama və sosial fəaliyyətlərlə məşğul olmaq, uşağın rəqəmsal balans və zaman idarəetməsi bacarığını formalaşdırır.

Psixoloqların fikrincə, media savadlılığı uşağın yalnız informasiyadan necə istifadə etdiyini deyil, özünü necə tanıdığını, duyğularını necə ifadə etdiyini və sosial dünyada necə var olduğunu müəyyən edir. Bu səbəbdən valideynlərin, müəllimlərin və psixoloqların üzərinə düşən vəzifə təkcə məhdudiyyətlər qoymaq deyil, uşağa sağlam psixoloji baza qazandırmaqdır. Rəqəmsal savadlılıq – psixoloji dayanıqlığın təməlidir. Texnologiyalar dəyişə bilər, amma sağlam düşüncə və güclü şəxsiyyət daim onunla olacaq.

Bir uşaq anası Nazlı Məmmədli isə media savadlılığını övladı ilə gündəlik ünsiyyətin bir hissəsi kimi qəbul edir:

"Bəzən valideynlər sadəcə olaraq "buna baxma", "onu oynama" kimi sərt qadağalarla uşaqları müəyyən məzmundan uzaqlaşdırmağa çalışırlar. Amma məncə, bu qadağalar çox vaxt əks nəticə verir. Uşaq qadağan edilən hər şeyi daha da maraqlı və cəlbedici hesab edə bilər".

Nazlı Məmmədli bu yanaşma əvəzinə, qızının baxdığı videolara özü ilə birlikdə baxmağı, onları müzakirə etməyi üstün tutur. Onun dediyinə görə, bu həm uşağın məntiqi düşünmə bacarığını inkişaf etdirir, həm də ana-övlad münasibətlərini möhkəmləndirir:

"Məsələn, birlikdə bir reklam izlədikdə, mən ona izah edirəm ki, bu reklamdakı hansı fikirlər realdır, hansısa isə, sadəcə, məhsul satmaq üçün yaradılmış görüntüdür. Qızım artıq özü də soruşmağa başlayır: "Ana, bu, doğrudandır, yoxsa bizi aldadırlar?" Bu suallar mənim üçün böyük bir uğurdur, çünki bu o deməkdir ki, o artıq tənqidi düşünməyi öyrənir".

Nazlı xanımın fikrincə, uşaqların media ilə əlaqəsinə nəzarət etmək təkcə texnoloji cihazları əllərindən almaqla olmur. Əksinə, onlarla dialoq qurmaq, məzmunu birlikdə analiz etmək və informasiyanı süzgəcdən keçirməyi öyrətmək, uşağın gələcəkdə özünü daha yaxşı qoruya bilməsinə yardım edir:

"Uşaqların beyninə süzülmədən daxil olan informasiya gələcəkdə onların dünyagörüşünü, qərarvermə qabiliyyətini formalaşdırır. Valideyn olaraq vəzifəmiz onlara bu informasiya axınında doğru ilə yanlışı ayırd etməyi öyrətməkdir".

Media savadlılığını uşaqlara erkən yaşlardan öyrətmək təkcə müasir dövrün tələbi deyil, həm də gələcəyimizi təhlükəsiz və sağlam inşa etməyin əsas şərtidir. Bugünkü uşaqlar – sabahın jurnalistləri, müəllimləri, həkimləri, dövlət adamlarıdır. Əgər onlar informasiya qarşısında passiv, təhlilsiz və təsirsiz şəkildə böyüsələr, cəmiyyətimizin gələcəyi də bir o qədər zəif və asan yönləndirilən olacaq. Ona görə də biz böyüklər – müəllimlər, valideynlər, mütəxəssislər – bu məsələdə biganə qala bilmərik.

Əslində, uşağa düzgün informasiya ilə yanaşı, informasiya ilə necə davranmalı olduğunu öyrətmək onu real həyata hazırlamaq qədər vacibdir. Bəlkə də, biz öz uşaqlığımızda bu anlayışlarla tanış deyildik, amma indi dünyada hər şey çox dəyişib. Əgər biz uşaqları düzgün yönləndirməsək, onları media selinin içinə təlimatsız atmış olarıq.

Uşaq media ilə tək qalanda təkcə texnologiya ilə yox, bəzən yalanla, təbliğatla, reklamla, saxta qəhrəmanlarla da qarşılaşır. Bu zaman onun əlində bir "kompas", yəni yön göstərici olmalıdır. Həmin "kompas" isə media savadlılığıdır. O, uşağa hansı xəbərin doğru, hansınınsa məqsədli yayıldığını, hansı kontentin faydalı, hansının isə zərərli olduğunu ayırd etməyi öyrədir.

Azərbaycan cəmiyyətində bu sahəyə marağın getdikcə artması, dövlət və ictimai təşəbbüslərin bu istiqamətdə fəaliyyətə başlaması ümidvericidir. Amma hələ görüləsi çox iş var. Bu işlərin ən mühümü isə valideyn-övlad münasibətində, məktəb-müəllim dəstəyindən asılıdır.

Bir uşağa doğru düşünməyi, tənqidi baxmağı, sual verməyi öyrətmək ona əzbər biliklərdən daha qiymətli bir miras buraxmaqdır. Media savadlılığı bu mirasın içində çox mühüm yer tutur. Gələcəyin ağıllı, müstəqil və düşünən vətəndaşları üçün bu bacarıq bir zərurət, hətta, bəlkə də, həyat dərsi olmalıdır.

**Elnurə CƏFƏROVA**
*Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi*

# "Səyyar Gənclər Evi" bu dəfə Sədərəkdə



Gənclərin asudə vaxtının səmərəli təşkili və şəxsi inkişafına xidmət edən layihə çərçivəsində növbəti tədbirlər Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyi ilə birgə təşkilatçılığı əsasında Sədərək rayonunun eyniadlı kəndində reallaşıb.



Açılış tədbirində nazirliyin şöbə müdiri İlahə Haqverdiyeva təmsil etdiyi qurumun fəaliyyət istiqamətləri və gənclər üçün yaradılan imkanlardan bəhs edib. Əlavə olunub ki, "Səyyar Gənclər Evi" layihəsi uzaq ərazilərdə yerləşən kənd və qəsəbələri əhatə edir. Məqsəd həmin yerlərdə yaşayan gənclərin şəxsi inkişafına, intellekt səviyyəsinə, sağlamlığına və sosial aktivliyinə töhfə vermək, maraqlı və əyləncəli vaxt keçirməsinə nail olmaqdır.



Layihənin proqramına uyğun olaraq "Naxçıvan Təlim Mərkəzi"nin əməkdaşı Turqay Babayev tərəfindən motivasiya təlimi, o cümlədən "Vətəni tanı!", "Nə? Harada? Nə zaman?" intellektual oyunları və əyləncəli idman yarışmaları təşkil olunub. Tədbirlərdə fərqlənən gənclər fəxri fərman və hədiyyələrlə mükafatlandırılıblar.

# Tələskənliyin içində unudulmuş səni xatırla



✍ **Gülcamal TAHİROVA**

*Dünyanın sanki bizdən bir addım öndə qaçdığı, hər şeyin zamana qarşı yarışdığı bir dövrdə yaşayırıq. Sanki həyat bir yarış meydanıdır və biz orada qalib gəlməliyik. Amma bu yarışda qalib olmaq üçün nəyimizi itirdiyimizi düşünmürük. Dəqiqələrə sığışdırılmış günlər, insanlarla ani söhbətlər, diqqətsiz baxışlar… Hər şey səthi, hər şey ötəri… Əslində isə həyat dərinlikdə baş verir – bir dostun baxışında, bir kitabın sətirində, səhər günəşi ilə dolu bir otaqda və ən əsası, öz içində.*

Biz bu qədər çox qaygının arasında yaşadığımızı düşünürük, amma əslində, tədricən özümüzdən uzaqlaşırıq. Tələskənliyin içində bir insan var, o sənsən. Həmin səni sən çoxdan unutmusan.

Bəs unudulmuş səni, məni, bizi necə tapmalıyıq? Bəlkə də, sən çoxdan unutmusan ki, həyat yalnız "yetmək" deyil, bəzən dayanmaq, hiss etmək, özünlə tanış olmaqdır. Bəzən xoşbəxtlik, axtardığın bir cavabda deyil, sadəcə, sükutda gizlənib. Bu sükutun adı meditasiyadır.

Meditasiya nə bir din, nə də xüsusi bir fəlsəfədir. Meditasiya bu andır, anı yaşamaqdır. İndi və burada olmaqdır. Nə dünənin peşmanlığı, nə də sabahın narahatlığı. Sadəcə, bu an.

İnsanların çoxu düşünür ki, meditasiya üçün xüsusi məkan, müəyyən poza, ya da saatlarla vaxt lazımdır. Əslində isə bir neçə dəqiqəlik sükut belə bəs edir özünü tapmaq üçün.

Meditasiya insanın içindəki xaosu sakitləşdirir. Zamanla səssizlikdən qorxmağı deyil, onu sevməyi öyrədir. Çünki o səssizlikdə sən özünü xatırlayırsan. Unudulmuş arzular, sıxışdırılmış hisslər, yaşanmamış duyğular yavaş-yavaş suyun üzünə çıxır. Bu, təmizlənməkdir. Yenidən başlamaqdır. Meditasiya təkcə ruhani deyil, elmi cəhətdən də sübut olunmuş bir praktikadır. Sən, sadəcə, nəfəsini dinləyirsən, amma bu nəfəs sənin həyatındır. Onunla bağlandıqca həyatı daha canlı, daha real hiss etməyə başlayırsan.

Bu gün cəmiyyət özünüdərkə yox, görüntüyə fokuslanır. Kim daha çox işləyir, kim daha çox paylaşır, kim daha çox görünür? Amma insan görünmək üçün deyil, var olmaq üçün yaradılıb. Meditasiya isə insanı bu varlığa – öz varlığına qaytarır.

Meditasiya edən insan daha anlayışlı olur. O, dinləməyi bacarır. Cavab verməyə tələsmir. Hiss edir. Hətta başqalarının səssizliyini belə duyur. Bu, cəmiyyətin də dəyişməsinə səbəb ola bilər. Çünki sakitlik zəncirvari yayılır, biri sakitləşəndə, digərləri də təsirlənir.

Bu dünya bizi sürətlə yaşamağa, ancaq səthi düşünməyə məcbur edir. Amma biz bu axına qarşı durmağı bacarmalıyıq. Bəzən, sadəcə, gözlərimizi yumub, nəfəs almaqla, bir neçə dəqiqəlik səssizliyə çəkilib qəlbimizin döyüntüsünü dinləməklə hər şey dəyişə bilər.

Unutma, sən bu dünyanın tələskənliyində yox, səssizliyində varsan. Və səssizlikdə olan sən elə sən özünsən. Tələskənliyin içində unudulmuş səni meditasiya ilə xatırla. Çünki sənə ən çox lazım olan elə sənsən!

# Dövlət qulluqçusu olmaq böyük şərəfdir

*Hər il iyunun 23-ü ölkəmizdə "Dövlət qulluqçularının peşə bayramı günü" kimi qeyd olunur. Bu, dövlət qulluğuna verilən önəmin və dövlətə vicdanla xidmət edən şəxslərə göstərilən etimadın göstəricisidir. Ötən günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilib. Bunlar arasında Naxçıvan Muxtar Respublikasından da bir sıra şəxslər təltif olunub. Biz də həmin şəxslərin təəssüratlarını öyrəndik.*




Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin şöbə müdirinin müavini, sektor müdiri *Rəşad Orucov* Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il 21 iyun tarixli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub. Bunun onun üçün böyük şərəf olduğunu bildirən Rəşad Orucov bu təltifi yalnız fərdi bir nailiyyət deyil, uzun illər ərzində dövlət qulluğunda vicdanla, məsuliyyətlə görülən işlərin qiymətləndirilməsi kimi qəbul edir: "Bu təkcə mənim deyil, çalışdığım kollektivin uğurudur.

Cənab Prezidentimizin dövlət qulluqçularına göstərdiyi yüksək diqqət və etimad bizlər üçün həm stimul, həm də gələcək fəaliyyətimizdə daha böyük məsuliyyət deməkdir. Bu təltif məni gələcəkdə daha böyük əzmlə və ruh yüksəkliyi ilə işləməyə ruhlandırır. Fürsətdən istifadə edərək ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Eyni zamanda 23 iyun – Dövlət qulluqçularının peşə bayramı münasibətilə bu sahədə çalışan bütün həmkarlarımı ürəkdən təbrik edir, onlara sağlamlıq, uğur və dövlətə sadiq, sədaqətli xidmət arzulayıram".

Qeyd edək ki, Rəşad Orucov 2009-cu ildə Şərur Rayon Statistika İdarəsində baş məsləhətçi vəzifəsi üzrə fəaliyyətə başlayıb. 2015-ci ildən Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində baş məsləhətçi, 2025-ci ildən şöbə müdirinin müavini, sektor müdiri vəzifəsində fəaliyyətini davam etdirir.




"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunan Babək rayon Yuxarı Uzunoba Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin baş mühasibi, baş məsləhətçisi *Səfər Şükürov* da uzun illərdir, dövlət qulluğunda çalışır: "Bu təltif onu göstərdi ki, dövlətimiz onun yolunda xidmətləri əsla unutmur, əksinə, hər zaman dəyərləndirilir. Dövlət qulluqçusu ictimaiyyətin gözündə etibarlı dayaqlardan biri olmalıdır. Gündəlik işdə qulluq prinsiplərinə sadiq qalmaq vacibdir. Mən həmişə çalışmışam ki, gördüyüm işlə dövlətin etimadını doğruldum, vətəndaşların inamını qazanım. Bu təltif təkcə şəxsi fəaliyyətimə verilən qiymət deyil, ümumilikdə, çalışdığım orqanın işinə olan inamın göstəricisidir".

Müsahibimiz qeyd edib ki, o öz sahəsində daim inkişaf etmək, yeni tələblərə uyğunlaşmaq və gənc dövlət qulluqçularına örnək olmaq istəyir: "Gələcəkdə də dövlətimizin inkişafı naminə səylə işləməyə davam edəcəyəm. Dövlət qulluqçusu olmaq bir öhdəlik deyil, bir şərəfdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qulluqçularına göstərdiyi yüksək diqqət və qayğı üçün minnətdaram".



Naxçıvan Muxtar Respublikası Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Firuzə Hüseynova "Dövlət qulluqçularının təltif edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 23 iyun tarixli Sərəncamı ilə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunub.

Dövlət qulluqçusu olmaq, sadəcə, bir peşə deyil, bu xalqa xidmət etməyi özünə borc bilənlərin seçdiyi bir yoldur. Bu yolda çalışmaq böyük məsuliyyət, həm də şərəf tələb edir. Bunu əməyinə yüksək dəyər kimi qiymətləndirən Firuzə Hüseynova bildirir: "2011-ci ildən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin baş məsləhətçisi vəzifəsində çalışıram. Gündəlik işimizdə müxtəlif sosial problemlərlə qarşılaşırıq – erkən nikahlar, məişət zorakılığı, qadınların əmək bazarında bərabər imkanlardan istifadə edə bilməməsi kimi məsələlər hələ də aktuallığını qoruyur. Bu problemlərin qarşısının alınması üçün profilaktik tədbirlər görmək bizim əsas vəzifəmizdir.
Dövlət qulluğunda çalışmaq insanı daim öyrənməyə, öz üzərində işləməyə və məsuliyyət daşımağa sövq edir.

Əldə etdiyim hər bir təcrübə mənim üçün bir dərs, hər bir çətinlik isə irəliləyiş üçün fürsət olub. Dövlət qulluqçusu kimi fəaliyyət göstərmək mənə yalnız peşəkar bacarıqlar qazandırmayıb, eyni zamanda Vətənə və xalqa xidmətin necə müqəddəs bir vəzifə olduğunu da dərk etdirib.

Əməyimə verilən yüksək qiymət tək mənə yox, çalışdığım kollektivə göstərilən qayğıdır. Bunun üçün dövlətimizə, muxtar respublika rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm".

*Biz də peşə bayramları münasibətilə onları səmimi-qəlbdən təbrik edir, məsuliyyətli və şərəfli fəaliyyətlərində uğurlar arzulayırıq.*

**"Şərq qapısı"**

# Qəribəm, hey gözlərəm...



*Vətəni, eli dilinin əzbəri olan insanlar bu vətəndən ayrı düşsələr də, ömrünün sonunadək onu unutmaz, "Vətən!" – deyib dillənər, bayatısı, kərənayısına bu müqəddəs kəlməni başlıq edər, folklor ruhunun əsas ideyasına çevirib gələcəyə yollayarlar. Özü dünyada olmayanda da sözü insanların dilinin əzbərinə çevrilər, vətən qeyrəti, vətən təəssübü bu insanları əbədiyaşara çevirər.*

Qərbi Azərbaycanın Dərələyəz mahalının Söylan rayonunun (Əzizbəyov) Paşalı qəzasının Gömür kənd sakini, 1953-cü il təvəllüdlü Behbudova Fatma Qaçay qızı da söz-söhbətini vətənlə başlayıb, vətənlə bitirənlərdəndir. O, qərbi azərbaycanlıların öz doğma el-obalarından zorla köçürüldükləri sonuncu mərhələdə – 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun eyniadlı kəndinə gələrək burada məskunlaşmışdır. Şahbuz rayonu Fatma xanım üçün yad deyildi, o, əvvəllər də bu kəndə çox gəlibmiş... Daha ağlına gəlməyib ki, nə vaxtsa öz doğma el-obasından qovulub qonaq qaldığı, istirahət etdiyi Gömür kəndinə qaçqın kimi gələcək... Bəli, Fatma xanım ailəsi, qohum-qəbiləsi ilə yaşadığı xoş günlərin hamısını Dərələyəzin Gömürü ilə bağlayır və o günlərini belə xatırlayır: "O yerlərdə xatirələrimiz, canımız qalıb... Orada elə yer yox idi ki, atla ayağım dəyməyə... Atamın böyük oğlu yox idi. Qardaşım bizdən balaca idi. Gəlirdik pencər yığmağa... Yanvar ayı idi. Soyuqda ermənilər avtobusdan uşaq qucağında azərbaycanlı bir qadını düşürtdülər. Onda o qadının üstündə bizimkilərlə onların arasında dava başladı, ara qarışdı. Biz davada qaçqın düşdük".

Fatma xanım Dərələyəz Gömürünün sayılıb-seçilən ailələrindən birinin qızı olub. Gözəlliyi ilə el-obada neçə gəncin könlünə hakim olan bu qadın özünün sevib-seçdiyi biri ilə ailə qursa da, xoşbəxt ola bilməyib. Həyat yoldaşı dünyasını dəyişib. Gənc yaşda dul qalmağına baxmayaraq, ailə qurmayıb, qubarlı qəlbi ilə qardaşının yanında yaşamağa başlayıb. Baxmayaraq ki, tale Fatma xanımla çox sərt oyun oynayıb, amma o, mərdliklə, kədəri qəlbində həyatla mübarizə aparıb. Vətəndən qovulmaq, didərgin düşmək isə Fatma xanım üçün, sözün əsl mənasında, faciəyə dönüb.

Fatma Qaçay qızı ürəyi sözlə, tarixlə dolu insandır. O, ermənilərin tarixən soydaşlarımıza qarşı törətdikləri vəhşilikləri unutmur, ululарının bu haqda danışdıqlarını bu gün bizə söyləyərək erməninin vəhşiliklə yoğrulmuş xislətini lənətləyir: "Ermənini qan qussun! Allah haqqı nahaqqa verməsin! Erməni həmişə bizə divan tutub. Qoca nənəm deyirdi ki, 1917-ci ildə 30 dənə gəbə toxumuşdum. Onları ermənilər əlimizdən aldılar. Qaçqın düşdük. Babam, əmim həmin vaxt ölüblər. Anamın dədəsi Pəhləvan Ocaxverdi idi. Naxçıvanın məclislərində həmişə qalib gəlib, xonçalar alıb gedib. Üç dəfə erməni pəhləvanını yıxıb. Sədərəyin heyvanlarını ermənilər aparırdılar. Bax mənim qardaşım üç gün döyüşdü, qoymadı aparalar". Fatma xanım özünün də mənsub olduğu Gömür kəndinin camaatının hünərindən, igidliyindən sinə dolusu danışır və konfliktlərin başlandığı zaman ermənilərin də gömürlülərin hünərindən qorxub-çəkindiklərini qürurla ifadə edir: "O vaxt ermənilər istəyib Gömürün üstünə gələlər. Başçıları da deyibdi ki, biriniz salamat qalmayacaqsınız. Gömürün üstünə getməyin. Qoyun, çıxsınlar getsinlər. Ona görə camaat salamat çıxdı. Bir də biz orada ermənilərin içində qalmırdıq, ayrı qalırdıq".

Fatma xanım qədim adət-ənənələri haqqında da müfəssəl məlumat verməkdən usanmır. O mənsub olduğu tayfanın xüsusiyyətlərini də qürur hissi ilə dilə gətirir. Fatma xanım və onun soydaşlarında ən çox müşahidə edilən cəhətlərdən biri də ənənələrinə sadiq qalmaq, bu ənənələrin qədim ünsürlərini müdafiə etməkdir. Təbiidir ki, onlar ənənələrini ancaq müsbət gözlə görüb və qəbul ediblər. Baxmayaraq ki, qloballaşan və az qala bütünlükdə texnologiyalarla cilalanan bir dövrdə bu ənənələr yeni nəsil tərəfindən qəbul edilməməkdədir. Lakin Fatma xanım və ənənəyə sadiq qalan soydaşları o günləri məhz həmin ənənələr çərçivəsində xatırlayır və sevirlər: "Səməndli, Qəmərli tayfası var idi. Biz Qəmərlidən idik. Qəmərli tayfasının qadınları kişi kimi idi. Xalam beş vedrə tutan yağ qazanını qaldırıb yerə qoyurmuş. Nənəxanım deyirmişlər adına. Mənim Sultan nənəm də erməni pəhləvanını qoyub yerə (yıxıb)".

Fatma xanım üçün vətən ana-atası qədər əzizdir. Vətəni onlarsız, onları vətənsiz düşünmür və xatırlamır Fatma xanım. Böyük sözü, ata məsləhəti, vəsiyyəti qəlbi vətən ağrısı ilə yaralanmış bu soydaşlarımız üçün qanuna çevrilib: "Atamı dediyindən döndərmək çətin iş idi. Atam öldü. Vəsiyyət etmişdi ki, məni aparın o kənddə basdırın. Elə də elədik. İndi dağıdıblar oraları... Kəndimizdə Armudlu bulağı var idi, yaxşı sularımız çox idi. Bu bulaqlara, dağlara atla gedirdik. Cavan idim. 17 yaşında buraya gəldim. Dul qaldım cavan yaşdan... Ondan sonra küsdüm həyatdan... Arvadın gözəlliyi namusudur, qızım. Dünyada namusdan gözəl heç nə yoxdur. Bizdə qızıldan-gümüşdən ötrü adam öldürməzlər, amma namusdan ötrü öldürərlər. Biz Qəmərli tayfasıyıq. Bizim tayfanın qadınları kişi hünərlidir..."

Qəlbi, ruhu vətən sevgisi, el həsrəti ilə dolu olan Fatma xanım həm də folklor ruhlu dili mənəvi gözəlliklə dolu olan bir insandır. Onun hər sözü, hər kəlməsi el ruhunu xatırladır. El-obasının adət-ənənələri Fatma xanımın həmişə xatirindədir. Lakin bütün həmyerliləri kimi Fatma xanımın folklor ruhunda Vətən dərdi, yurd həsrəti, qəriblik ağrısı dillənir:

*Dağların qarı mənəm,*
*Gün vursa əriməram.*
*Qəbrimi quzeydə qazın,*
*Cavanam, çürümərəm.*

*Qəribəm, ağlar başım,*
*Yastığa dönər yaşım.*
*Çıxarlar, çağırarlar,*
*Qərib, gəlib qardaşın.*
(ağlayır)

*Qəriblik yaman olar,*
*Sovrular, saman olar.*
*Qəriblikdə qalanın*
*Halı tez yaman olar.*

*Başı bəlgəli dağlar,*
*Sulu, kölgəli dağlar.*
*Qəribəm, hey gözlərəm,*
*Nə vaxt el gəlir, dağlar?!*

*Qəribəm, al köynəyim,*
*Üstü xal-xal köynəyim.*
*Ölərəm, cavan olaram,*
*Üstümdən al köynəyim...*

Bəli, mayası qeyrət və namusla yoğrulan bu insanların Vətən sevgisi də həmin o qeyrətin, namusun bir parçasıdır. Çünki Vətəni sevən insanda namus-qeyrət hissinin varlığından söhbət etmək olar. Ölməz şairimiz Abbas Səhhət demişkən: "Vətəni sevməyən insan olmaz, olsa da, ol şəxsdə vicdan olmaz!" Namusu, qeyrəti, vicdanı olanın da Vətəni vardır!

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent, Qərbi Azərbaycan İcmasının Ordubad rayonu üzrə nümayəndəsi***

# 6 kəmər, 11 qızıl medal




## "Turan" Döyüş Klubundan möhtəşəm nailiyyət

Ötən həftə Azərbaycan MMA və Qrappling Federasiyasının dəstəyi ilə Hövsan Olimpiya İdman Kompleksində yarış keçirilib. Yarışda muxtar respublikanı "Turan" Döyüş Klubunun idmançıları təmsil ediblər. Baş məşqçi Xəyal Abdullayevin rəhbərliyi ilə klubun 13 üzvü yarışda mübarizə apararaq, ümumilikdə, 6 kəmər və 11 qızıl medal qazanıb.

Mötəbər yarışda uğur qazanan idmançılarla redaksiyamızda görüşüb, həmsöhbət olduq. Azərbaycan Respublikasının idman ustası Xəyal Abdullayev söhbət zamanı bildirdi: "Bu yarışda qalib gəlmək bizim üçün həm məsuliyyətli, həm də qürurverici oldu. "Turan" Döyüş Klubunun idmançıları bu yarışda təkcə iştirak etməklə kifayətlənmədilər, həm də böyük uğura imza atdılar. Onlardan 6-sı – Ravil Alməmmədov (69 kq), Əli Qəribov (66 kq), Uğur Bağışov (53 kq), Əbülfəz Cəfərov (47 kq), Nurəddin Əliyev (42 kq) və Tunar Abdullayev (38 kq) kəmər döyüşlərində rəqiblərinə heç bir şans tanımadılar. İdmançılarımız taktiki baxımdan yarışa tam hazır idilər və hər biri üzərinə düşən işin öhdəsindən layiqincə gəldi. Bizim üçün bu nəticə, sadəcə, medal deyil, illərdir, davam edən məşqlərin və zəhmətimizin bəhrəsidir. Qarşıda bizi daha böyük yarışlar gözləyir və əminəm ki, bu nəticələr bizim üçün yalnız başlanğıcdır".

Xəyal müəllim onu da qeyd etdi ki, bu günə qədər iştirak etdikləri bütün yarışlarda uğur qazanıblar. İdmançılardan Uğur Bağışov üçün isə bu yarış çox önəmli olub: "Həm özümə, həm də bizi yetişdirən məşqçilərimizə layiq olduğumuzu sübut etmək istəyirdik. Qarşıda böyük hədəflərimiz var və inanıram ki, daha çox çalışaraq böyük uğurlara imza atacağıq".

69 kiloqram çəki dərəcəsində mübarizə aparan Ravil Alməmmədovun sözlərinə görə, döyüşlər daha çətin keçib: "Amma özümə inandım və sona qədər mübarizə apardım. Məni dəstəkləyən məşqçimə, ailəmə və komanda yoldaşlarıma minnətdaram. Bu qalibiyyət məni daha da motivasiya edir və növbəti yarışlara daha güclü hazırlaşmağa əlavə stimul yaradır. Kənardan asan görünsə də, qazanılan hər qələbə, hər uğur böyük əziyyətlər hesabına mümkün olur".

Komandanın digər üzvləri də bildirdilər ki, kəmər uğrunda döyüş onlar üçün xüsusi əhəmiyyət daşıyırdı. Onlar bu uğurları Xəyal Abdullayevin və bütün komandanın əziyyətini düşünərək qazanıblar.

Biz də idmançılarımızı təbrik edir, növbəti turnirlərdə uğurlar arzulayırıq.

✍ **Bülbül RÖVŞƏNQIZI**

## Naxçıvandan olan idmançı dünya ikincisi olub



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, Rusiyada – Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində kəmər güləşi üzrə dünya çempionatı keçirilib. Yarışda 29 ölkədən, ümumilikdə, 300 idmançı iştirak edib.

Çempionata milli komandamızın heyətindən qatılan idmançılar arasında Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin Əməkdar məşqçi Faiq İsgəndərovun yetirməsi Namiq Əlizadə də olub.

2007-2008-ci il təvəllüdlü idmançılar arasında 65 kq çəki dərəcəsi üzrə mübarizə aparan təmsilçimiz əvvəlcə Suriya, sonra Tacikistan idmançılarını məğlub edərək finala yüksəlib. Rusiya idmançısı ilə keçirdiyi final görüşündə üstünlüyü əldən verən Namiq buna baxmayaraq, gümüş medal qazanmaqla karyerasında ilk dəfə dünya çempionatının mükafatçısı olub.

## DÜNYA xəbərləri

### Əfsanəvi "Titanik" gəmisinin qalıqlarında nadir boyunbağı tapılıb

Atlantik okeanında aparılan tədqiqat zamanı əfsanəvi "Titanik" gəmisinin qalıqları yaxınlığında onun göyərtəsindəki sərnişininə məxsus olduğu ehtimal edilən nadir boyunbağı tapılıb. Qara şüşə parçaları olan bəzək əşyası bir əsrdən çox müddət ərzində səthin 3,8 kilometr altında qalıb.

Boyunbağı gəminin ön və arxa hissəsinin qalıqları arasında olan fraqmentlərdə tapılıb. Onu yüksək təzyiq altında əmələ gələn bərk çöküntü qatından ehtiyatla çıxarmaq lazım gəlib. Yenidənqurmadan sonra bəlli olub ki, bəzək əşyası XX əsrin əvvəllərinin dəbinə xas olan ürək və səkkizbucaqlı formada qara şüşə muncuqlardan ibarətdir.

Boyunbağının sahibinin kimliyini müəyyən etmək mümkün olmayıb. Onun qəzada ölməsi ehtimalı var. Bununla belə alimlər boyunbağının sağ qalan sərnişinə aid ola biləcəyini və gəmidə qaçaqaç vaxtı itdiyini istisna etmirlər.

### "2024 YR4" asteroidi bəşəriyyət üçün ciddi təhlükə yarada bilər

Ötən ilin sonunda astronomlar "2024 YR4" adlı asteroidi kəşf ediblər. Bu göy cismi ilkin hesablamalar yayımlandıqdan sonra ictimaiyyətin diqqətini cəlb edib. Həmin hesablamalara əsasən növbəti onilliyin əvvəlində onun Yerə çırpılması ehtimalı az da olsa, mövcud idi.

Sonrakı müşahidələr göstərib ki, asteroidin Yerə düşməsi riski, demək olar ki, istisna olunub. Lakin mütəxəssislərin fikrincə, 2032-ci ildə onun Aya düşməs, təxminən, 4 faizlik ehtimalla mümkündür.

Qərbi Ontario Universitetinin Yer və Kosmos Araşdırmaları İnstitutunun alimlərindən ibarət bir qrup yaxın zamanda "2024 YR4" asteroidinin Ayla toqquşmasını əhatə edən 410-dan çox simulyasiya aparıb və nəticələri analiz edib.

Mütəxəssislərin məlumatına görə, asteroidin diametri 53-67 metr arasında dəyişir. Əgər bu asteroid Ayla toqquşsa, 6,5 meqaton trotil gücündə partlayışa səbəb olacaq və diametri ən azı 1 kilometr olan bir krater yaranacaq.

### Türkiyə turizm reytinqində dünyanın ilk dörd ölkəsi siyahısına daxil olub

2024-cü ildə qardaş ölkəyə 56,7 milyon xarici turist səfər edib. Bu barədə respublikanın mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy deyib.

"BMT-nin Dünya Turizm Təşkilatının 2025-ci ilin may ayı üçün dərc etdiyi Dünya Turizm Barometrinə görə, Türkiyə 2024-cü ildə 56,7 milyon xarici turist qəbul edərək dünyanın ən böyük turizm məkanına çevrilib", – deyə nazir "X" sosial media şəbəkəsində bildirib.

Onun sözlərinə görə, Türkiyə əvvəlki il ilə müqayisədə bir pillə irəliləyərək 5-ci yerdən 4-cü yerə yüksəlməklə bu sahədə davamlı artım nümayiş etdirib.

## Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxs tərəfindən 25 iyul 2025-ci il tarixdə hərraca çıxarılacaq nəqliyyat vasitələrinin siyahısı

| S/s | Balanssaxlayıcı müəssisənin adı | Əlaqəli şəxs | Nəqliyyat vasitəsinin markası | Dövlət nömrə nişanı | Buraxılış ili | Start qiyməti (manatla) | 10% beh (manatla) |
|---|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Naxçıvan Müəllimlər İnstitutu | Hüseynov Hüseyn Nadir oğlu (070) 241-89-51 | "HYUNDAI SONATA " minik | 75-AA-214 | 2009 | 12700,0 | 1270,0 |
| 2. | Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi | Hüseynov Hüseyn Nadir oğlu (070) 241-89-51 | "HYUNDAI SONATA " minik | 85-AA-048 | 2007 | 11700,0 | 1170,0 |
| 3. | Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | Hüseynov Hüseyn Nadir oğlu (070) 241-89-51 | "NISSAN SUNNY" minik | 85-AA-823 | 2001 | 4600,0 | 460,0 |
| 4. | Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Hüseynov Hüseyn Nadir oğlu (070) 241-89-51 | "NAZ LİFAN LF 7162 E 620" minik | 85-AA-933 | 2012 | 5500,0 | 550,0 |
| 5. | "Şərq qapısı" qəzeti redaksiyası | Hüseynov Hüseyn Nadir oğlu (070) 241-89-51 | "NAZ LİFAN LF 7162C" minik | 75-AA-068 | 2010 | 3700,0 | 370,0 |
| 6. | Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi | Hüseynov Hüseyn Nadir oğlu (070) 241-89-51 | "NAZ LİFAN LF 6430 E 620" SUV minik | 85-AA-998 | 2012 | 6500,0 | 650,0 |

**Qeyd:**

Nəqliyyat vasitələri üzrə cərimə və məhdudiyyətlərlə bağlı məsələlərin həlli balanssaxlayıcı təşkilatlar tərəfindən təmin olunmalıdır.

Məlumatın dərc olunduğu gündən hərracda iştirak etmək istəyən şəxslərə satışa çıxarılan nəqliyyat vasitəsilə qabaqcadan tanış olmaq imkanı balanssaxlayıcı təşkilat tərəfindən yaradılır.

Hərraca qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifariş və digər zəruri sənədləri hərracın başlanmasına ən geci 3 bank günü qalanadək təqdim etmiş və nəqliyyat vasitəsinin ilkin satış qiymətinin 10 faizi həcmində beh keçirmiş hüquqi və fiziki şəxslər buraxılırlar.

Sifarişlər Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxs tərəfindən Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6 ünvanında hərracın keçirilməsinə ən geci 3 (üç) bank günü qalanadək qəbul olunacaqdır:

Hərracda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

1. Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd (hüquqi şəxslər üçün: notarial qaydada təsdiq olunmuş qeydiyyat şəhadətnaməsi, nizamnaməsi və VÖEN);

2. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən müəyyən edilmiş hesaba behin köçürülməsini təsdiq edən sənəd (10% məbləğində beh AZ27NABZ12360150000000028944 nömrəli hesablaşma hesabına ödənilməlidir).

Hərrac 25 iyul 2025-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxsin inzibati binasında keçiriləcəkdir.

Hərrac günü sifarişçilərin hərrac zalına daxil olmaq üçün qeydiyyatı saat $10^{45}$-dək aparılır.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxsin @nmr_herracmerkezi "Instagram" hesabından və yaxud *auksion.nmr.az* elektron portalı və *htm@nemlak.gov.az* e-mail ünvanından ala bilərsiniz.

***Əlaqə telefonu: (036) 545-01-38; (060) 304-20-13***

### *İtmişdir*

Babək şəhəri, Qoşadizə məhəlləsində Niftəliyev Kərəm Firudin oğlunun adına verilən AA-008084 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Bulqan kənd sakini Əkbərova Tükaz Cəlil qızının adına olan $883^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kənd sakini Əhmədov Ələsgər Həmzə oğlunun adına olan $877^{A}$ nömrəli, 10308038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində yaşamış Qənbərova Şəkər Fərəc qızına məxsus olan JN-$818^{A}$ və JN-$818^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, Səməd Vurğun küçəsi, döngə 114 ünvanında İmanov Ərrəhman Salman oğlunun adına verilən A-007449 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində yaşamış Qənbərova Şəkər Fərəc qızına məxsus JN-1755 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kənd sakini Əliyev Məcid Abış oğlunun adına olan JN-$518^{A}$ nömrəli, 10800038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
**Baş redaktor:** SARA ƏZİMOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 170

*Nömrəyə məsul:* Aidə İbrahimova, Cavanşir Bağırlı, Türkanə Əsədova
*Dizayner:* Tacirə Vəliyeva

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*